34_27 IYUl-QARA.qxd 9/11/2025 6:12 PM Page 1


# UNİKAL

№34 (2264) 12 sentyabr 2025-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az




# Vüqar Qurbanovla Zaur Əliyev hədəfdə: Maliyyə yoxlaması yalnız təftişlə bitməyə bilər




Səh.8

## Nazirdən təhsil ekspertləri ilə bağlı sərt açıqlama

*“Bizdə təhsil eksperti anlayışı yoxdur. Onlar özlərini ekspert adlandırırlar”. “Unikal” xəbər verir ki, bu sözləri elm və təhsil naziri Emin Əmrullayev bu gün yeni tədris ilinə dair keçirilən brifinqdə deyib. “Olimpiadalarda yüksək nəticə göstərmək üçün ingilis dilini bilmək mühüm deyil. Təhsil eksperti adlandırdığınız şəxslər özü orada iştirak etmədiyi üçün bilmir. Elm və Təhsil Nazirliyi üçün təhsil eksperti anlayışı yoxdur. Bunu biz yox, siz qəbul etmisiniz. Bizə görə təhsil mütəxəssisləri və rəy var. Ancaq bu, şantajdırsa, biz bu barədə danışmırıq. Təhsil ekspertləri təhsili daha yaxşı etmir. Onların qaldırdığı problemlər doğrudur. Aralarında hörmət etdiyim şəxslər də var. Amma adam özü-özünə...*

Səh.2

## “Özəl pensiya fondlarının yaradılması bu günün çağırışlarındandır



*Deputat Vüqar Bayramov “Unikal”a müsahibə verib. O, pensiya yaşına az qalmış şəxslərin işdən çıxarılmasının qanunla qadağan edilməsindən, özəl pensiya fondlarının yaradılmasının hansı üstünlüklər yaradacağından, pensiya yaşına çatmadan vəfat edən şəxslərin sosial sığortasının ailəsinə verilməsindən...*

Səh.4

## Daha bir bahalaşmada oliqarx barmağı



*Son günlərin ən çox müzakirə olunan mövzularından biri ətin qiymətindəki artım və bu bahalaşmanın qarşıdakı günlərdə də davam edəcəyi barədə yayılan xəbərlərdir. Hətta bəzi media orqanları bazarlarda mal ətinin kiloqramının 30 manata qədər qalxacağı ilə bağlı məlumatlar yayıblar.*

Səh.5

## Baş nazirdən siyasi partiyalarla bağlı qərar



*”Siyasi partiyanın maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi qaydası”nda dəyişiklik edilib. “Unikal” xəbər verir ki, Baş nazir Əli Əsədov bununla bağlı qərar imzalayıb. Qərara əsasən, Siyasi partiyalar tərəfindən maliyyə hesabatı hər il aprelin 1-dən gec olmayaraq, aşağıdakı qaydada...*

Səh.2

34_27 IYUl-QARA.qxd 9/11/2025 6:12 PM Page 2



# "Mənimlə olan adam yazıqdır" - Aktrisa Pərvin Abıyeva



***"Çox qısqancam. Özümə aid olanı özümünküləşdirirəm. Bu sənətdə olan insan mənimlə olsa, yazıqdır. Məndən başını götürüb qaçar".***

Axşam.az xəbər verir ki, bu sözləri aktrisa Pərvin Abıyeva "Günə uğurla" proqramında deyib. Sənətçi qısqanc olmasından danışıb: "İnanmıram ki, sənətdə olan adam qısqanclığıma tab gətirə bilər. Danışa, yazışa bilər. Amma mən baxmalıyam ki, kimlə, nə danışır. Sevdiyim adamın hər şeyini görmək istəyirəm. Hələ şou-biznes adamıdırsa, bütün günü yanında gəzərəm". "Özümə nə istəyirsiniz yazın, deyin. Ailəmə görə hər şey edərəm" deyə, Pərvin əlavə edib.

# "Məktub da yazılıb, qurum məhəl qoymur" - Nuradan şikayət

***Müğənni Nura Suri İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidmətindən şikayət edib.***

"Unikal" xəbər verir ki, o, sosial şəbəkədə paylaşım edərək binalarının altındakı avtodayanacağa su axdığını bildirib: "Xətai rayonu, Babək prospekti 10 ünvanında "Azərsu"nun (İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti) yolda yerləşən su borusu çürüyüb. Boru tez-tez deşilir, su axıb binanın altındakı avtodayanac-



ağa tökülür. Nəticədə qaraj daim suyun içində qalır. Komendant "qaynar xətt"ə dəfələrlə zəng edib, gəlirlər, sadəcə yamayırlar, amma borunu dəyişmirlər. Bir müddət keçəndən sonra yenə eyni hal təkrarlanır. Rəsmi məktub da yazılıb, amma nə məktuba cavab verilir, nə də boru dəyişdirilir. Qar və yağış yağanda "Azərsu"nun borularına görə camaat suyun içində qalır, həyatını itirənlər də olur. Amma qurum buna məhəl qoymur. Bəs hara şikayət edək? Yenə ölkə Prezidentinə müraciət edək? Nə etməliyik ki, bu qurum işini normal şəkildə görsün?".

# Manaf Ağayevin oğlu işdən çıxarıldı

***Tanınmış müğənni Manaf Ağayevin oğlu Elçin Ağayev Bakı Sağlamlıq Mərkəzindəki vəzifəsindən kənarlaşdırılıb.***

"Unikal" Modern.az-a istinadən xəbər verir ki, Elçin Ağayev üç ay öncə Səhiyyə Nazirliyinin Bakı Sağlamlıq Mərkəzində direktorun məsləhətçisi vəzifəsinə təyin olunmuşdu.

Qeyd edək ki, bir neçə gün öncə bəzi KİV-lərdə yazıldığı kimi, burada "direktorun müşaviri" vəzifəsi yoxdur, Elçin Ağayevin təyin olunduğu vəzifə "direktorun məsləhətçi" postu olub.



Manaf Ağayevin oğlu bu postda cəmi üç ay işləyib və sentyabr ayında işdən çıxarılıb. Onun işdən çıxarılma səbəbi etimadı doğrultmamasıdır.

Elçin Ağayev daha əvvəl Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Monitorinq və Daxili Təhqiqat Departamentinin müdiri vəzifəsində çalışıb.



# "Biri məni məhkəmə, digəri polislə hədələdi"

***Müğənni Kərim Abasovun Xalq artistləri Nazpəri Dostəliyeva, Samir Cəfərov və Əməkdar artist Təyyar Bayramovun ifasını tənqid etdikdən sonra hədləndiyini açıqlayıb.***

Axşam.az xəbər verir ki, sənətçi bu haqda özünün "Meqa şou" proqramında danışıb. O bildirib ki, ifaçılar onun iradını qəbul etməyiblər: "Bir Əməkdar, bir Xalq artisti biabırçı formada ifa etmişdi. Onlar haqqında fikir yazdım. İnsan etdiyi səhvlə barışmalıdır. İki kəlmə dedim, biri polis, digəri məhkəmə ilə qorxutdu. Nə gündə oxuyurlarsa, o gündə də savadlarıdır. Başa düşmürlər ki, biabırçı oxumağa nə məhkəmə, nə polis baxır. Nə gündə oxuyursunuzsa mənim günahım deyil. Bir az savadınızı artırın. Xalq, Əməkdar artist elə oxumamalıdır. Sizin tələbələriniz var. Mən oxuya bilərəm, mənim tələbəm yoxdur. Mənə yaraşa bilər, sizə yox".

# Qızının Aygün Kazımova ilə bağlı arzusu



***Xalq artisti Aygün Kazımovanın müğənni qızı İlqarə Kazımova onunla bağlı açıqlama verib.***

"Öz aramızda" proqramına qonaq gələn İlqarə anası ilə duet oxumaq istədiyini bildirib: "Bir neçə ildən sonra anamla duet oxumaq istəyirəm. Başqa kimləsə duet oxumaq istəyim yoxdur. Şən oynamalı mahnı olsun. Beyonsla Şakiranın dueti kimi bir şey gözləyirəm".

İlqarə Kazımova verilişlərə getməməsinin səbəbini açıqlayıb. Sənətçi bildirib ki, yalnız yeni işlərlə verilişlərə qatılmaq istəyir: "Hamıya təşəkkür edirəm. Efirə çıxmamağımın səbəbi Çıxıb hansısa mövzudan danışmaq mənim marağım deyil. Çıxmaq üçün əlimdə material olsun istəyirəm. Yox idi deyə çıxmırdım".

İlqarə anası, Pop kraliça Aygün Kazımovanın mahnısını oxuduğunu deyib.

# "Allah məni övladıma tez qovuşdursun" - Nazpəri Dostəliyeva

***Xalq artisti Nazpəri Dostəliyeva verilişlərin birində kövrək anlar yaşayıb.***



Gənc yaşda olan övladını itirən müğənni yaşadığı hissləri dilə gətirib. "Hər zaman göz yaşlarımı gizlətməyə çalışmışam, çünki insanlara xoşbəxtlik arzulayan bir sənətkar öz ağrı-acısını insanlara yükləmək istəmir. Hər gün oyananda Allaha dua edirəm ki, məni övladıma tez qovuşdursun.

Biz Allahımıza üsyan etməməliyik. Yenə o səbr mənə gəlir. Susuram, bir müddət özümlə qalıram. Elə olur qapını bağlayıram ki, o vəziyyətimi kimsə görməsin".

34_27 IYUI-QARA.qxd 9/11/2025 6:12 PM Page 3



# Vüqar Qurbanovla Zaur Əliyev hədəfdə

## İki yüksək vəzifəli şəxsi çətin günlər gözləyir: proses yalnız təftişlə bitməyə bilər... - Sensasiyalı təfərrüatlar!




***Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti İcbari Tibbi Sığorta Agentliyində (İTSDA) və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyində (TƏBİB) də yoxlamalara başlayıb. Bu barədə ilk olaraq "Unikal" məlumat yayıb.***

Həmin məlumata görə, maliyyə yoxlamaları hazırda davam etdirilir.

Maliyyə Nazirliyinin İctimaiyyətlə əlaqələr və vətəndaş müraciətləri ilə iş şöbəsinin müdiri Mayis Piriyev məlumatı təsdiqləyib və bildirib ki, Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti tərəfindən İcbari Tibbi Sığorta Agentliyində və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyində (TƏBİB) qanunamüvafiq qaydada nəzarət tədbirləri həyata keçirilir.

O qeyd edib ki, Dövlət Maliyyə Nəzarəti Xidməti tərəfindən aparılan nəzarət tədbirlərinin nəticələri mütəmadi olaraq Nazirliyin rəsmi internet səhifəsində dərc olunur və ictimaiyyətə açıqlanır.

Xatırladaq ki, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri Zaur Əliyev, TƏBİB-in icraçı direktoru isə Vüqar Qurbanovdur.

Maliyyə Nazirliyinin yoxlamaları hansı tibb müəssisələrini əhatə edir?

"Unikal" həmçinin hazırda yoxlama aparılan tibb müəssisələrinin siyahısını əldə edib. Siyahı aşağıdakı kimidir:

- Kliniki Tibbi Mərkəz;
- Yeni Klinika;
- Sabunçu Tibb Mərkəzi;
- Bakı Baş Səhiyyə Mərkəzi;
- Gəncə Şəhər Birləşmiş Xəstəxanası;
- Lənkəran Rayon Mərkəzi Xəstəxanası.

### Vüqar Qurbanovla Zaur Əliyevi ağır günlər gözləyir

Məlumatlarda o da qeyd olunur ki, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və TƏBİB-dəki yoxlamalar maliyyə naziri Sahil Babayevin birbaşa nəzarəti altında həyata keçirilir. Bu isə sözügedən təftişin "qanunamüvafiq qaydada nəzarət tədbirləri", yəni sıradan yoxlama olduğu barədə rəsmi açıqlamaya müəyyən qədər şübhə ilə yanaşmağa əsas verir. Belə görünür, son zamanlar adı çəkilən iki qurumda yeyintilər olduğuna dair iddialar əbəs deyilmiş. Üstəlik, unutmayaq ki, bir müddət öncə Hesablama Palatasının İcbari Tibbi Sığorta Fondunda apardığı auditin nəticələri də ortada ciddi nöqsanların olduğunu təsdiqləmişdi. Palatanın İTSF-nin 2023-2024-cü illərdəki gəlir və xərclərinin icrasının, eləcə də sərbəst vəsaitinin idarə olunmasına dair hesabatında açıq şəkildə göstərilirdi ki, həmin dövr ərzində bahalı əməliyyatlar özəl klinikalara ötürülüb. Bundan başqa, İTSF və TƏBİB-in illik hesabatlarının auditi hər iki qurum tərəfindən hesabatlılığın düzgün təşkil edilməməsi nəticəsində Fondun gəlir və xərclərinin, bununla da icmal büdcənin müvafiq parametrlərinin təhrifini müəyyən edib. Belə ki, gəlirlərin icrası ilə bağlı göstəricilər tam nəzərə alınmayıb, əvvəlki illərə dair bəzi istiqamətlər üzrə xərclər və öhdəliklər doğru-düzgün əks olunmayıb. Həmçinin son iki il ərzində Fondun büdcəsinə nəzərdə tutulmayan istiqamətlərdən vəsait daxil olub, eləcə də qanunsuz olaraq müxtəlif istiqamətlərə vəsait yönəldilib. Bəzi sahələrə isə nəzərdə tutulduğundan artıq vəsait xərclənib. Bu əməliyyatlar zamanı qanunvericiliyin tələbləri açıq-aşkar pozulub. Əhalinin sığortalanmasına ayrılan vəsaitlərə gəlincə, audit zamanı burada da qanun pozuntuları aşkarlanıb. Bu vəsaitlər proqnozlaşdırılan zaman əhalinin sayının rəsmi statistik məlumatlarla uyğunluq təşkil etmədiyi üzə çıxarılıb.

Hesablama Palatasının ortaya çıxardığı yuxarıdakı nöqsanlar, eləcə də digər qanunsuzluqların ardından Maliyyə Nazirliyinin İTSA və TƏBİB-də yoxlamalara başlaması təsadüfi görünmür, eyni zamanda adları çəkilən qurumların rəhbərləri - Zaur Əliyevlə Vüqar Qurbanovu qarşıda daha çətin günlərin gözlədiyini, onların hüquqi məsuliyyətə cəlb ediləcəyinə dair mülahizələrdə inandırıcılıq payının yüksək olduğunu söyləməyə əsas verir.





### TƏBİB özünü, İTSDA etimadı doğrultmur!

Əslində bir müddətdir ki, Azərbaycan səhiyyəsində üçtərəliyin hökm sürməsi cəmiyyətdə müzakirə, vətəndaşlar arasında şikayət predmetinə çevrilmişdi. Hansısa tibbi xidmət üçün müraciət edən vətəndaşı Səhiyyə Nazirliyi TƏBİB-ə, TƏBİB İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə, o da yenidən Səhiyyə Nazirliyinə yönəldir, bu süründürməçiliklərdən bezən insanlar isə özəl tibb müəssisələrinə üz tutmaq məcburiyyətində qalırdılar.

Halbuki həm TƏBİB, həm də İTSDA yaradılarkən hər kəs səhiyyədəki yığılıb qalmış köhnə problemlərin həllini gözləyirdi. Lakin reallıq tam fərqli bir mənzərəni ortaya çıxarıb: belə görünür ki, dövlət vətəndaşların sağlamlığı üçün hər il büdcədən yüz milyonlarla manat vəsait ayırdığı halda kimlərsə bu pulları öz aralarında pay-püşk etməklə məşğuldurlar! Teymur Musayevin rəhbərlik etdiyi Səhiyyə Nazirliyi isə məsul olduğu sahəyə nəzarəti tam itirib, nəticə etibarilə də səhiyyə sistemində artıq gizlədilməsi mümkün olmayan başıpozuqluq, özfəaliyyət yaranıb. Ən əsası isə dövlət vəsaitləri, büdcə pulları faktiki olaraq biriləri tərəfindən müxtəlif yollarla havaya sovrulmaqdadır.

Bir neçə özəl klinikanın sahibi Azər Xudiyevin təzəlikcə yerli mediaya açıqlamasındakı ilginc detallar da ölkə səhiyyəsində qaranlıq işlərin çevrildiyinə şübhə yeri qoymurdu. O, açıq şəkildə bildirirdi ki, xəstə icbari sığortanın ödədiyi pulu istədiyi xəstəxanada xərcləyə bilmir, həmin vəsait TƏBİB və İTSDA tərəfindən məcburi şəkildə yönəldilir. Hara? Dövlətin dotasıyası ilə işləyən və keyfiyyətsiz xidmət göstərən dövlət xəstəxanalarına və ya səhiyyə sistemindəki məmurlara aid klinikalara: "Orada keyfiyyətli xidmət göstərilmir, xəstələr uzun növbələrdə qalır. Və biz məcburi göndərişlərlə özəl tibbi xidməti məhv edirik. Vətəndaş öz maaşından ayırır ki, icbari tibbi sığorta ilə təmin olunsun. Amma o, keyfiyyətli xidmət almır".

Göründüyü kimi, hər kəsə məlumdur, elə Hesablama Palatasının auditindən də görünür ki, TƏBİB özünü, İTSDA isə etimadı doğrultmayıb.O da iddia olunur ki, icbari tibbi sığorta üçün ayrılan vəsaitləri mənimsəmək üçün bahalı ürək əməliyyatı adı altında hansısa başqa nisbətən ucuz əməliyyat, məsələn, plastik əməliyyat icra edirlər.Təbii ki, bunu sübut etmək də çətindir.Onu da qeyd edək ki, təkcə 2023-2024-cü illərdə tibbi xidmətlərin tariflərinin 26 faiz çox hesablanmasına dair Palatanın ortaya çıxardığı fakt hər şeyi deyir. Biz hələ müvafiq göndəriş verilmədiyi halda İTSA-nın 14 tibb müəssisəsinə 2 ildə 4 milyon 273,6 min manat vəsait ödəməsindən danışmırıq. Göndəriş verilmədiyi halda, bu qədər vəsait niyə, nəyə əsasən ayrıla bilərdi, bir az da konkretləşdirsək, təkcə həmin rəqəmlər ölkə səhiyyəsinin aparıcı qurumlarında korrupsiyanın miqyasını təsəvvür etmək üçün kifayət deyilmi?

Ən əsası, bu qədər nöqsandan, qanunsuzluqdan sonra Maliyyə Nazirliyinin yoxlamalarının ciddi nəticələr doğuracağını təxmin eləmək çətin deyil. Söhbət təftiş predmetinə çevrilən qurumların rəhbərliyindəki dəyişikliklərdən tutmuş həmin qurumların rəhbər şəxslərinin cinayət məsuliyyətinə cəlb edilmə ehtimalından, eyni zamanda səhiyyədəki üçbaşlılığa son qoymaq üçün addımların atılmasından, məsələn, TƏBİB-in ya yerli-dibli ləğvindən, ya da Səhiyyə Nazirliyinə birləşdirilməsindən gedir. Bir sözlə, yəqin ki, yaxın gələcəkdə TƏBİB və İTSDA üçün heç nə əvvəlki kimi olmayacaq, elə bu qurumların rəhbərləri - Vüqar Qurbanovla Zaur Əliyev üçün də!

***Sənan Mirzə***

# "Şəhidlər xiyabanına girişi məhdudlaşdırmaq çətindir" - Komitə sədri

***"Şəhidlər xiyabanı ilə bağlı fikirlər səsləndirildi. Tabii ki, bu məsələ ayrı-ayrı ölkələrdə fərqli tənzimlənir".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin iclasında komitə sədri Fazil Mustafa deyib.

"Bu, icra xarakterli məsələdir. Buna hansısa bir şəkildə prosedur müəyyən etməyimiz çətindir. Şəhidlər xiyabanı bir deyil, hər şəhərdə var. Bunu xüsusi bir qanunla hansısa bir şəkildə məhdudlaşdırma gətirəndə problem çıxacaq. Bunu insanların mənəvi məsələsi kimi turistlərə başa salmaq daha doğru olar. Hər şeyə dövlətin qadağa, giriş-çıxış məhdudiyyəti qoyması ora ucalıq qazandırmır. Buna cəmiyyət ucalıq qazandırsa yaxşıdır", - deyə komitə sədri bildirib.




Qeyd edək ki, bir müddət əvvəl Bakıya turist kimi səfər edən əcnəbilər Şəhidlər xiyabanında qeyri-etik videolar çəkərək sosial şəbəkələrdə paylaşıb. Yayılan görüntülərdə ərəblər qəbuledilməz hərəkətlər ediblər. Həmin şəxslər polis tərəfindən saxlanılıb və cinayət işi başlanılıb. Məhkəmənin qərarı ilə həmin şəxslər haqqında 3 ay müddətinə həbs qətimkan tədbiri seçilib.

***Anar Kəlbiyev***

# Zəngəzur dəhlizi: Maneəsiz keçid modeli və regional nəticələr

***Ermənistanın Baş naziri Nikol Paşinyanın parlamentdə səsləndirdiyi son açıqlama Zəngəzur dəhlizi ilə bağlı müzakirələrə yeni çalar gətirdi. Onun sözlərinə görə, dəhlizdən istifadə edən Azərbaycan vətəndaşlarının pasportları elektron cihazlarla oxunacaq və sərhədçilər yalnız şübhəli hallarda prosesə müdaxilə edəcəklər.***

Bu yanaşma ilk baxışdan Azərbaycanın əsas tələblərindən birinə - yəni, erməni sərhədçiləri ilə birbaşa təmasın olmamasına - cavab verir. Prezident İlham Əliyev də dəfələrlə vurğulayıb ki, Naxçıvana hərəkət edən yüklər və sərnişinlər heç də erməni sərhədçisinin üzünü görməməlidir. Paşinyanın təklif etdiyi "oxuyucu cihazlar" modeli Bakı üçün müəyyən qədər qəbuledilən kompromis təsiri bağışlayır.

Lakin burada bir mühüm məqam qalır: Azərbaycan "maneəsiz keçid" anlayışını yalnız fiziki təmasın olmaması kimi başa düşür, yoxsa ümumiyyətlə heç bir yoxlamanın aparılmamasını nəzərdə tutur? Bu, hələ də açıq qalan sualdır. Çünki texniki detallara bağlı tərəflərdən heç biri dəqiq mexanizmi açıqlamır.

Bu qeyri-müəyyənliyin bir səbəbi də Ermənistan daxilində mövcud ictimai-siyasi təzyiqlərlə bağlı ola bilər. Paşinyan hər hansı konkret razılaşmanı detallı şəkildə açıqlasa, daxildə "suverenliyin güzəştə gedilməsi" ittihamları güclənə bilər. Eyni zamanda, prosesin Vaşinqton razılaşmasının icrasını risk altına atmaması üçün tərəflər



detalları son ana qədər gizli saxlamağı üstün tuta bilərlər.

## Regional aktorların maraqları

Türkiyə: Zəngəzur dəhlizi Ankara üçün strateji hədəfdir. Bu yol həm Türkiyə ilə Azərbaycanı birbaşa birləşdirəcək, həm də Türk Dövlətləri Təşkilatının inteqrasiyasını möhkəmləndirəcək. Türkiyə dəhlizin "maneəsiz və şərtsiz" fəaliyyət göstərməsini dəstəkləyir, çünki bu, həm iqtisadi, həm də geosiyasi baxımdan Ankaranın Qafqazda mövqelərini gücləndirəcək.

Rusiya: Moskva 10 noyabr 2020 bəyanatında nəzərdə tutulan nəqliyyat əlaqələrinin açılmasının əsas nəzarətçisinə çevrilmək istəyirdi. Amma hazırkı reallıqda Qərbin və ABŞ-nin iştirakı Moskvanın manevr imkanlarını məhdudlaşdırır. Buna baxmayaraq, Kreml dəhlizin açılmasını öz maraqlarına uyğun şəkildə yönləndirməyə çalışacaq, xüsusən regionda təsir imkanlarını qorumaq üçün.

Qərb və ABŞ: Vaşinqton razılaşması göstərdi ki, Qərb artıq regiondakı proseslərə birbaşa müdaxilə etməyə başlayıb. ABŞ üçün dəhlizin açılması təkcə Azərbaycan və Ermənistan arasında sülhün təmin olunması deyil, həm də Çinə və Rusiyaya qarşı Cənubi Qafqazda yeni təsir rıçaqlarının yaradılması deməkdir. Qərbin əsas marağı - bu yolun Çin-Avropa dəhlizinə çevrilməsidir.

Zəngəzur dəhlizi yalnız texniki bir nəqliyyat xətti deyil, həm də böyük güclərin maraqlarının toqquşduğu bir strateji məkandır. Paşinyanın "oxuyucu cihazlar" formulu Bakının təmassız keçid tələbinə müəyyən qədər cavab versə də, məsələnin geosiyasi ölçüləri hələ də açıq qalır. Bu dəhlizin necə və kimin nəzarəti altında fəaliyyət göstərəcəyi regionun gələcək güc balansını müəyyənləşdirəcək əsas faktorlardan biri olacaq.

***Züriyə Qarayeva***

# Su tarifləri diferensiallaşdırılacaq - Rəsmi

***Azərbaycanda gələcəkdə su tariflərinin diferensiallaşdırılması planlaşdırılır.***

"Unikal" xəbər verir ki, bunu Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yanında Suların Mühafizəsinə Dövlət Nəzarəti Xidmətinin rəisi Rafiq Aslanov deyib.

Onun sözlərinə görə, növbəti illərdə əsas diqqət əhalinin və sahibkarlıq subyektlərinin sudan səmərəli istifadəsi və qorunması istiqamətində maarifləndirilməsinə, sudan qanunsuz istifadənin qarşısının alınmasına, transsərhəd çaylarda və digər su obyektlərində monitorinq və nəzarətin gücləndirilməsinə yönələcək.

"Asanlaşdırılmamış istifadə hallarının qarşısının alınması, göllər və su tutarlarının düzgün uçotunun aparılması, ətraf mühitin qorunması və su obyektlərinin çirklənməsinin qarşısının alınması da prioritetlərimiz sırasındadır", - R. Aslanov qeyd edib.

O əlavə edib ki, görüləcək işlər çərçivəsində gələcəkdə sudan ödənişli istifadə qaydalarının təkmilləşdirilməsi və tariflərin diferensiallaşdırılması nəzərdə tutulur:

"Buradakı məqsəd aztəminatlı ailələr və daha çox sudan istifadə edən sahibkarlar üçün ədalətli bölgünü təmin etməkdir. Bu, tariflərin qaldırılması demək deyil, sadəcə istifadəçilər arasında fərqləndirmə aparılmasıdır. Tariflərin artırılması barədə qərar vermək müvafiq qurumların səlahiyyətindədir və yaxın gələcəkdə bu istiqamətdə addım nəzərdə tutulmur". (Report.az)

# Ən çox şikayət edilən sığorta şirkətləri - Rəsmi

***Son bir ildə Azərbaycanda avtomobillərin icbari sığortası üzrə ən çox şikayət edilən şirkət "Atəşgah Sığorta" ASC (1.42 indeksi ilə) olub.***

Bu barədə Azərbaycan Mərkəzi Bankından bildirilib. Məlumata görə, sığorta şirkəti bu ilin aprel ayından etibarən şikayət indeksi üzrə liderdir. Belə ki, bu ilin aprel ayı ilə müqayisədə sığorta şirkətinin şikayət indeksi 0.21 bənd artıb.

Məlumata görə, ötən ay ən çox şikayət edilən şirkətlər arasında "AtaSığorta" ASC 1.28 indeksi ikinci olub və qırmızı zolaqda qərarlaşıb.

Sarı zolaqda yer alan "Xalq Sığorta" isə 1.02 indeksi ilə siyahıda üçüncü olub. Digər sığorta şirkətləri üzrə şikayət indeksi aşağıdakı kimidir:

# Konstitusiya Məhkəməsinə yeni Aparat rəhbəri təyin edildi

***Konstitusiya Məhkəməsinə yeni Aparat rəhbəri təyin olunub.***

"Unikal" Bizim.media-ya istinadən xəbər verir ki, bu vəzifəyə Babayev Anar Şahlar oğlu təyinat alıb.

Qeyd edək ki, daha əvvəl Konstitusiya Məhkəməsində aparat rəhbəri vəzifəsini Rauf Quliyev icra edirdi.

Anar Babayev III dərəcəli dövlət müşaviridir, "Tərəqqi", "Dövlət qulluğunda fərqlənməyə görə" medalları ilə təltif olunub.

# "AzərEnerji" ilə "Masdar" şirkəti arasında müzakirələr aparılıb

***"AzərEnerji" ASC-nin sədri Baba Rzayevlə "Masdar" Şirkətinin layihələr üzrə rəhbəri Mohamed Al Muharraminin başçılıq etdiyi nümayəndə heyəti arasında görüş olub.***

"Unikal" xəbər verir ki, görüşdə ümumi qoyuluş gücü 1000 MVt olan günəş və külək elektrik stansiyaları (Bankə, Biləsuvar və Qaradağ) layihələri ilə əlaqədar müzakirələr aparılıb.

Görüşdə əməkdaşlığın mövcud vəziyyəti və gələcək perspektivlər haqda da fikir mübadiləsi edilib.

# Ucar rayonunda 14-29 yaşda gənclərin statistikası

***2025-ci ilin əvvəlinə Ucar rayonu üzrə 14-29 yaşda olan gənclərin sayı 18,9 min nəfər olmuş, Rayon əhalisinin 22,1 faizini təşkil etmişdir.***

Gənclərin 9,7 min nəfəri kişilərdən, 9,2 min nəfəri isə qadınlardan ibarət olmuşdur. 14-29 yaşda olan gənclərin 3,2 min nəfəri və ya 16,9 faizi şəhərdə, 15,7 min nəfəri və ya 83,1 faizi kənd yerlərində yaşayır.

***Ucar Rayon Statistika idarəsinin baş məsləhətçisi Tural Əzizli***

# Prezident Masallıda avtomobil yolunun təmirinə pul ayırdı



***Prezident İlham Əliyev Masallı rayonunun Xıl-Sirəbil-Allahyarlı-Molalan-Çayqıraq avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, səkkiz min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən Xıl-Sirəbil-Allahyarlı-Molalan-Çayqıraq avtomobil yolunun əsaslı təmiri məqsədilə ilkin olaraq 1,5 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun əsaslı təmirinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

# Azərbaycanla Özbəkistan XİN başçıları əməkdaşlığı müzakirə etdilər




***Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və özbəkistanlı həmkarı Bəxtiyor Saidov telefon danışığı zamanı əməkdaşlığın genişləndirilməsini müzakirə ediblər.***

"Unikal" xəbər verir ki, bu barədə Özbəkistan XİN başçısı "X"də yazıb.

Bildirilib ki, Azərbaycan-Özbəkistan tərəfdaşlığının mövcud vəziyyəti və ümidverici gələcəyi, eləcə də regional və qlobal inkişaflar barədə fikir mübadiləsi aparılıb:

"Dinamik siyasi dialoqun davam etdirilməsi, iqtisadi əməkdaşlığın genişləndirilməsi və birgə layihələrin irəlilədilməsi xüsusi vurğulandı. Tarixi bağlar və ortaq maraqlar üzərində qurulmuş strateji əlaqələri və müttəfiqliyi daha da dərinləşdirməyə dair birgə öhdəliyimizi bir daha təsdiqlədik".

# Bir sıra şəxslərə dərman vasitəsi kimi psixotrop maddələr pulsuz veriləcək

***Çernobıl AES-də qəza nəticəsində zərər çəkmiş vətəndaşların dərman preparatları ilə təmin olunması qaydasına dəyişiklik edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Baş naziri Əli Əsədov qərar imzalayıb.

Qərara əsasən, siyahıda ambulator müalicəsi Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilmiş pulsuz dərman reseptləri əsasında verilən dərman preparatlarının sırasına dərman vasitəsi kimi tibdə istifadə edilən psixotrop maddələr də əlavə edilib.

Həmçinin, bu qayda Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etmiş şəxslər və şəhid ailələrinə də şamil edilib.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5"
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Baş nazirdən siyasi partiyalarla bağlı qərar

***"Siyasi partiyanın maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi qaydası"nda dəyişiklik edilib.***



"Unikal" xəbər verir ki, Baş nazir Əli Əsədov bununla bağlı qərar imzalayıb.

Qərara əsasən, Siyasi partiyalar tərəfindən maliyyə hesabatı hər il aprelin 1-dən gec olmayaraq, aşağıdakı qaydada Mərkəzi Seçki Komissiyasına təqdim edilməlidir:

-hesabat dövrü ərzində maliyyə fəaliyyəti olan siyasi partiya "Auditor xidməti haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun əldə edilmiş auditor rəyi ilə birlikdə maliyyə vəziyyəti haqqında hesabatı, maliyyə-təsərrüfat fəaliyyətinin nəticələri haqqında hesabatı və əhəmiyyətli uçot siyasəti və izahlı qeydləri;

-hesabat dövrü ərzində maliyyə fəaliyyəti olmayan siyasi partiya yalnız maliyyə vəziyyəti haqqında hesabat üzrə mövcud qalıqların istifadəsinin və maliyyə-təsərrüfat fəaliyyətinin nəticələri haqqında hesabat üzrə dəyişikliyin olmaması barədə arayışı (3 nömrəli əlavə).

Eyni zamanda qərara əsasən, maliyyə hesabatı və bu Qaydada göstərilən arayış siyasi partiyanın rəhbəri (siyasi partiyanın sədri, siyasi partiyada sədr vəzifəsi olmadığı halda, partiyanın qurultayarası kollegial idarəetmə orqanının rəhbəri) və baş mühasibi tərəfindən imzalanır və siyasi partiyanın möhürü ilə təsdiq ediləcək.

# Parlamentdə azad edilmiş ərazilərdəki dini abidələrə dair müzakirə aparılacaq

***Milli Məclisdə işğaldan azad edilmiş ərazilərdəki dini abidələrin bərpası ilə bağlı qarşıya çıxan problemlər və həqiqətlərin beynəlxalq ictimai rəyə çatdırılması imkanları müzakirə ediləcək.***

Bu, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin bu gün keçirilən iclasında müzakirəyə çıxarılan komitənin Payız sessiyası üçün İş Planında əksini tapıb.

Qeyd edilib ki, işğaldan azad edilmiş ərazilərdəki dini abidələrin durumu, bərpası ilə bağlı qarşıya çıxan problemlər və həqiqətlərin beynəlxalq ictimai rəyə çatdırılması imkanlarının müvafiq komitələrlə birgə ictimai müzakirəsi həyata keçiriləcək.



Eyni zamanda komitədə sessiya müddətində "Dini abidələrin durumu" və "İctimai birliklərin mövcud durumu" ilə bağlı ictimai müzakirələrin keçirilməsi nəzərdə tutulur.

# Nazirdən təhsil ekspertləri ilə bağlı sərt açıqlama

***"Bizdə təhsil eksperti anlayışı yoxdur. Onlar özlərini ekspert adlandırırlar".***



"Unikal" xəbər verir ki, bu sözləri elm və təhsil naziri Emin Əmrullayev bu gün yeni tədris ilinə dair keçirilən brifinqdə deyib. "Olimpiadalarda yüksək nəticə göstərmək üçün ingilis dilini bilmək mühüm deyil. Təhsil eksperti adlandırdığınız şəxslər özü orada iştirak etmədiyi üçün bilmir. Elm və Təhsil Nazirliyi üçün təhsil eksperti anlayışı yoxdur. Bunu biz yox, siz qəbul etmisiniz. Bizə görə təhsil mütəxəssisləri və rəy var. Ancaq bu, şantajdırsa, biz bu barədə danışmırıq. Təhsil ekspertləri təhsili daha yaxşı etmir. Onların qaldırdığı problemlər doğrudur. Aralarında hörmət etdiyim şəxslər də var. Amma adam özü-özünə ad qoyub və siz də bunu qəbul etmisiniz. Siz indi həmin adama yenidən ekspert deyəcəksiniz? Şübhə varsa, məsələ budur elə, utanmasan oynamağa nə var ki?", - deyə nazir əlavə edib.

# Şuşakəndə ilk köç baş tutub

***Xocalının Şuşakənd kəndinə sentyabrın 11-də ilk köç baş tutub.***

"Unikal" xəbər verir ki, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, ilk mərhələdə kəndə 15 ailədən ibarət 59 keçmiş məcburi köçkün qayıdıb.

Bildirilib ki, bu gün mənzillərin açarları ailələrə təqdim edilib. Şuşakənd kəndində sakinlərin rahat və təhlükəsiz yaşayışı üçün bütün zəruri infrastruktur yaradılıb. Kənddə müasir standartlara cavab verən yeni yollar çəkilib. Sakinlər elektrik enerjisi, təbii qaz və içməli su ilə tam təmin olunub. Bununla yanaşı sosial obyektlərin fəaliyyətə başlaması üçün də zəruri şərait yaradılıb.

Tədbirdə çıxış edən Prezidentin Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov sakinləri tarixi dönüş münasibətilə təbrik edib, onlara doğma torpaqlarında firavan və əmin-amanlıq içində yaşamalarını arzulayıb.



34_27 IYUl-QARA.qxd 9/11/2025 6:13 PM Page 6



# 1990-cı ildə Azərbaycanın Ermənistandan atəşə tutulması ilə bağlı sənədlər elan edilib

***Sentyabrın 11-də Bakı Hərbi Məhkəməsində Ermənistan Respublikası vətəndaşlarının ittiham olunduğu cinayət işi üzrə məhkəmə prosesi sənədlərinin elan olunması ilə davam etdirilir.***

"Unikal" xəbər verir ki, elan edilən sənədlərdən biri 1990-cı il martın 24-də Sədərəyə Ermənistanın Ararat rayonunun Yerasx kəndi tərəfdən 2 ədəd raket atılması faktı ilə bağlı olub. Həmin vaxt raketlərdən biri havada yanıb, digəri isə Sədərək sakini Qasımov İsmayıl Bayram oğlunun həyətindən bir qədər aralıda yerə düşərək partlayıb.



Növbəti sənədlər Şahbuz rayonunun Şada kəndində 6 nəfərin xəsarət alması, Tovuz rayonunun Qışlaq və digər kəndlərin atəşə tutulması faktları ilə bağlı olub. İstintaqla müəyyən edilib ki, Ermənistanın Şəmşəddin rayonundan 1990-cı il martın 27-də saat 17:00 radələrindən başlayaraq saat 00:00-dək Tovuz rayonunun Qışlaq, Yuxarı Hacallı, Əlibəyli kəndləri odlu silahlarla güclü atəşə tutulub. Hadisə zamanı mülki əhali arasında xəsarət alanlar olub.

Bundan başqa, Vəli Zeynalovun öldürülməsi faktı üzrə sənəd də elan edilib. Bildirilib ki, 1990-cı il martın 27-28-də Ermənistandan müxtəlif kalibrli silahlarla Babək rayonunun Gərməçataq kəndinə hücum edilərək 10 ev yandırılıb, Naxçıvan Vilayət Komitəsinin Dövlət hüquq şöbəsinin müdiri Zeynalov Vəli Məmməd oğlu avtomat silahla qətlə yetirilib.

Elan olunan digər sənədə əsasən, 1990-cı il iyulun 11-də Bərdə-İstisu yolunun 93-cü kilometrində Ağdərə rayonunun Qozlukörpü kəndi yaxınlığında 16 ədəd avtomobilin daxil olduğu karvanının avtomat silahlardan atəşə tutulması nəticəsində 3 nəfərin ölüb, 22 nəfər yaralanıb.

Qeyd edək ki, Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşlarının məhkəməsi davam etdirilir.

# Azərbaycan və Ermənistan nümayəndə heyətləri sərhəddə görüşübmüş

***Ötən həftə Azərbaycan və Ermənistan baş nazirlərinin müavinlərinin nümayəndə heyətləri iki ölkənin sərhədyanı ərazilərində, Sünik vilayətinin cənub hissələrində və Zəngilan rayonu ərazisində görüşüblər.***

"Unikal" xəbər verir ki, bu barədə erməni KİV məlumat yayıb.

Nümayəndə heyətlərinin tərkibinə Ermənistan və Azərbaycan dövlət sərhədinin demarkasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə komissiyanın, Müdafiə Nazirliyi, Milli Təhlükəsizlik Xidməti, Xarici İşlər Nazirliyi və Ərazi İdarəetmə Nazirliyinin nümayəndələri daxil olub.

Qeyd edək ki, sentyabrın 5-də Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevin və Ermənistan Respublikası Baş nazirinin müavini Mher Qriqoryanın rəhbərliyi ilə iki ölkənin nümayəndə heyətlərinin Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazisinə qarşılıqlı səfərləri baş tutub.

***Ağarza Elçinoğlu***



# Kamran Əliyev BPA-nın 30-cu illik konfransında iştirak edib

***Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi geniştərkibli nümayəndə heyəti Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) 30-cu illik konfransı və ümumi yığıncağında iştirak məqsədilə Sinqapurda işgüzar səfərdə olub.***

Bu barədə "Unikal"a Baş Prokurorluqdan məlumat verilib. Bildirilib ki, tədbirdə Baş prokurora ötən il Bakıda Baş Prokurorluğun təşkilatçılığı ilə yüksək səviyyədə keçirilmiş Assosiasiyanın 29-cu Ümumi Yığıncağının uğurlu təşkilinə görə təltifnamə təqdim olunub. Bununla əlaqədar çıxış edən Baş prokuror qeyd edib ki, bu mükafat ölkəmizin beynəlxalq aləmdə artan nüfuzunun bariz göstəricisi olmaqla yanaşı, Azərbaycan Prokurorluğunun qlobal miqyasda səmərəli fəaliyyətinə verilən yüksək qiymətin təzahürüdür.

Konfrans zamanı, həmçinin "İqtisadi cinayətlər və aktivlərin bərpası üzrə ixtisaslaşmış şəbəkə" adlı sessiya təşkil olunmuşdur. Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin idarə rəisi İsfəndiyar Hacıyevin moderatorluğu ilə keçirilən sessiyada Azərbaycan Respublikasının Baş prokurorunun müavini Heydər Məmmədov "İqtisadi cinayətlərin araşdırılmasında və aktivlərin qaytarılmasında texnologiya əsaslı yanaşmalar - Azərbaycan təcrübəsi" mövzusunda çıxış edərək, ölkəmizdə maliyyə cinayətlərinin istintaqı, aktivlərin qaytarılması, süni intellekt və müasir texnologiyaların tətbiqi sahəsində əldə edilmiş təcrübə barədə iştirakçıları məlumatlandırıb.

Tədbir çərçivəsində Baş prokuror Böyük Britaniyanın Kral Prokurorluğu Xidmətinin rəhbəri, Səudiyyə Ərəbistanı Krallığı, İsveç Krallığı və Litva Respublikasının Baş prokurorları, eləcə də Malayziya və Braziliya Federativ Respublikasının Baş prokurorlarının müavinləri ilə ikitərəfli görüşlər keçirib.

Görüşlər zamanı qarşılıqlı əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Xüsusilə, cinayət işləri üzrə hüquqi yardım, ekstradisiya, təcrübə və informasiya mübadiləsinin genişləndirilməsi məsələləri diqqət mərkəzində olub, tərəflər beynəlxalq cinayətkarlığa qarşı mübarizədə qarşılıqlı etimada əsaslanan birgə fəaliyyətlərin əhəmiyyətini vurğulayaraq, əməkdaşlıq haqqında Memorandumun imzalanması imkanlarını da müzakirə ediblər.

Bununla yanaşı, qarşılıqlı maraq doğuran bəzi konket cinayət işlərinin istintaqı ilə bağlı məsələlər ətrafında da fikir mübadiləsi baş tutub.

Tədbirdə, həmçinin, ölkəmizin İndoneziya Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Ramil Rzayev də iştirak edib.

# Hikmət Hacıyev ABŞ-da sülh gündəliyi barədə geniş müzakirələr apardı

***Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ABŞ Konqresində keçirilən Yaxın Şərq Sammitində və Amerika Yəhudi İcmasının tədbirində iştirak edib.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycanın Vaşinqtondakı səfirliyinin "X" hesabında paylaşım edilib.

Bildirilib ki, Hikmət Hacıyev sammit çərçivəsində Azərbaycan-ABŞ strateji tərəfdaşlığı, regional məsələlər və qlobal təsirə malik olan sülh gündəliyi barədə müzakirələr aparıb.

## "Əsas problemimiz odur ki, oxuduğumuzu anlamırıq" - Emin Əmrullayev

***"Sertifikatlaşmanın əsas nəticəsi odur ki, 90% müəllimin əməkhaqqısı artırılıb".***

"Unikal" xəbər verir ki, bu sözləri elm və təhsil naziri Emin Əmrullayev yeni tədris ilinə dair bu gün keçirilən brifinqdə deyib.

Nazir bildirib ki, məktəbdəki müəllim keyfiyyəti sertifikasiya ilə kifayət qədər artır.

"Bizim birinci mərhələ suallarımızda çalışırıq ki, humanist olaq. Müəllimlər çətinlik çəkməsin. Növbəti mərhələdə biz daha çox oxuyub anlamağa yönələcəyik. Bizim əsas problemimiz odur ki, oxuduğumuzu anlamırıq. Məhz ibtidai təhsildə oxuyub anlamanı gücləndirmək olduqca vacibdir", - deyə o qeyd edib.

## Qarabağ Universitetində 2 mindən çox tələbə təhsil alacaq

***"Yeni tədris ilindən Qarabağ Universitetində 2 mindən çox tələbə təhsil alacaq".***

"Unikal" xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev yeni tədris ilinə dair keçirilən brifinqdə deyib.

O bildirib ki, ilk dəfə tibb ixtisası üzrə 70 nəfər, tibb bacısı(qardaşı) ixtisası üzrə 30 nəfər tələbə adını qazanıb.

## "65 yaşına çatan müəllimlər var ki, işləmək istəyir" - Komitə sədri

***"65 yaşına çatmış elə müəllimlər var ki, fəaliyyətlərini davam etdirmək istəyirlər. Bununla bağlı problemlərimiz var".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Elm və təhsil komitəsinin bu gün keçirilən iclasında komitə sədri Anar İsgəndərov deyib.

"İmtaha gedir, uğur qazanmır, amma özünü haqlı sayır. Bir il ərzində Milli Məclisə gələn belə insanları qəbul etmişəm. Özüm də müəllim olduğum üçün müəllimlə davranmağın yollarının nə olduğunu bilirəm", - dyeə komitə sədri bildirib.

***Anar Kəlbiyev***

34_27 IYUI-QARA.qxd 9/11/2025 6:13 PM Page 7





## "Qeyri-ənənəvi təriqətlərin yayılması bizi narahat etməlidir" - Deputat

***"Azərbaycanda qeyri-ənənəvi təriqətlərin yayılması və onların təsir imkanlarının artması bizi narahat etməlidir".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin bu gün keçirilən iclasında deputat Ceyhun Məmmədov deyib.

"Son proseslər, dünyada gedən hadisələr onu göstərir ki, dindən alət kimi istifadə olunur və gələcəkdə də istifadə olunacaq. Azərbaycanın uğurları artdıqca, müəyyən qüvvələr son vaxtlar aktivləşiblər. Xüsusilə dini sahədə bunları etməyə çalışırlar", - deyə deputat bildirib.

***Anar Kəlbiyev***

## Pezeşkian Ərdəbildə Azərbaycanı xatırlatdı



***"Ölkənin mövcud problemləri daxili imkanlar hesabına həll oluna bilər".***

"Unikal" xəbər verir ki, bunu İran prezidenti Məsud Pezeşkian Ərdəbil vilayətində investorlar və iş adamları ilə görüşü zamanı deyib.

"Problemlərimizi özümüz həll edə bilərik. Nefti və qazı olmayan ölkələr belə yaşayır və onları almağa məcburdur. Biz də öz gücümüzə arxalanmalıyıq. Əgər nefti sata bilmiriksə, bu, o demək deyil ki, biz öz ayaqlarımız üzərində dayana bilmərik. Bizim hasilat və sənaye sahəsində yaradıcı yanaşmalarımız var", - Pezeşkian bildirib.

O, Ərdəbil vilayətinin coğrafi mövqeyinə də diqqət çəkib: "Vilayətinizə başqa tərəfdən baxın. Siz Azərbaycanla həmsərhədsiniz, Ermənistanla yaxınsınız və dəniz yolları ilə başqa ölkələrlə əlaqə saxlamaq imkanlarınız var".

***Ağarza Elçinoğlu***

## Nazirdən məktəbli avtobusları ilə bağlı açıqlama

***"Məktəbli avtobusları ilə bağlı layihə tədricən genişlənəcək".***

"Unikal" xəbər verir ki, bu sözləri elm və təhsil naziri Emin Əmrullayev yeni tədris ilinə dair bu gün keçirilən brifinqdə jurnalistlərin suallarını cavablandırarkən deyib.

Nazir qeyd edib ki, hazırda bu layihə pilot olaraq mövcuddur. "Layihə özəl-dövlət tərəfdaşlığı ilə həyata keçirilir. Valideyin qərar verir ki, mənim övladım o avtobusdan istifadə etsin, ya etməsin. Bu tədris ili ərzində tədricən həmin avtobusların sayı və istiqamətləri artırılacaq", - deyə nazir əlavə edib.

# "Özəl pensiya fondlarının yaradılması bu günün çağırışlarındandır

### Vüqar Bayramov: "Güman olunur ki, özəl pensiya fondlarının yaradılması ilə bağlı qanunvericiliyə edilən dəyişikliklər aidiyyəti qurum tərəfindən hazırlanaraq müzakirələrə təqdim olunacaq"

***Deputat Vüqar Bayramov "Unikal"a müsahibə verib. O, pensiya yaşına az qalmış şəxslərin işdən çıxarılmasının qanunla qadağan edilməsindən, özəl pensiya fondlarının yaradılmasının hansı üstünlüklər yaradacağından, pensiya yaşına çatmadan vəfat edən şəxslərin sosial sığortasının ailəsinə verilməsindən və ölkəmizdə pensiyaların bütün şəhər və rayonlarda eyni vaxtda ödənilməsinin mümkünlüyündən danışıb.***

***-Vüqar bəy, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclasında Azərbaycanda pensiya yaşına az qalmış vətəndaşlarımızın əmək hüquqlarının qorunması üçün Əmək Məcəlləsinə dəyişiklik təklif etdiniz. Belə ki, pensiya yaşına az qalan şəxslərin işdən çıxarılması qanunla qadağan edilsin. Müşahidələrinizə əsasən, belə hallar çoxdurmu və bu dəyişiklik hansı üstünlüklər yaradacaq?***

- Ümumiyyətlə, əksər ölkələrdə pensiya yaşına az qalmış vətəndaşların əmək hüquqları xüsusilə qorunur. Onlar iş yerlərini itirdikdə, yenidən iş tapmaqda çətinlik çəkirlər. Türk dövlətlərinin əksəriyyətində belə praktika var. Bizim müşahidələr göstərir ki, pensiya yaşına az qalmış şəxslərin işdən çıxarılması halları var. Belə halların konkret sayını qeyd etmək mümkün olmasa da, bu cür məqamların olduğunu qeyd edə bilərik. Hər il yeni iş yerlərinin yaradılması ilə yanaşı, həm də müəyyən iş yerləri bağlanır. Bu həm dövlət, həm də qeyri-dövlət sektorunda olur. Burada məqsəd həmin vətəndaşlarımızın əmək hüquqlarının qorunması ilə bağlıdır. Bu baxımdan təkliflərimizi təqdim etdik. Əmək Məcəlləsinə belə bir düzəliş edilərsə, bu, pensiya yaşına az qalmış vətəndaşlarımızın əmək hüquqlarının daha yaxından qorunmasına imkan verəcək. Onlar işdən azad olunursa, bu həmin şəxslərin sosial vəziyyətinə təsir göstərir. Bu, heç bir halda arzuolunan hesab edilə bilməz. Təklif mövcud əmək bazarındakı dəyişikliklərə və müşahidələrə əsasən təqdim olunub. Güman edirik ki, bu istiqamətdə uyğun dövlət qurumları ilə müzakirələrimiz qanunvericilikdə oxşar dəyişikliyin həyata keçirilməsinə imkan yarada bilər.

***-Pensiya məsələsindən danışarkən qeyd etmək yerinə düşər ki, ölkəmizdə özəl pensiya fondları haqqında qanun layihəsi hazırlanır. Bu layihə gələn il qəbul oluna bilərmi və özəl pensiya fondlarının nə kimi üstünlükləri olacaq?***

- Özəl pensiya fondlarının yaradılması bu günün çağırışlarındandır. Bu istiqamətdə həm qanunvericilik bazasının formalaşması, həm də bütövlükdə mexanizmlərin hazırlanması ilə bağlı intensiv işlər gedir. Güman olunur ki, özəl pensiya fondlarının yaradılması ilə bağlı qanunvericiliyə edilən dəyişikliklər aidiyyəti qurum tərəfindən hazırlanaraq başa çatdırılıb və müzakirələrə təqdim olunacaq. Özəl pensiya fondları vətəndaşlarımıza paralel seçim imkanları deməkdir. Özəl pensiya fondlarına yığım edən vətəndaş pensiya yaşı tamam olan zaman iki mənbədən pensiya ala bilər. Bu da onların pensiya məbləğlərinin artmasına gətirib çıxaracaq. Əgər vətəndaş dövlətdən 500 manat pensiya alırsa, özəl pensiya fonduna yığımlar nəticəsində məsələn, əlavə olaraq 300 manat da oradan ala bilər. Bu isə vətəndaşlarımızın pensiya məbləğinin artmasına gətirib çıxarar. Bu, bir tərəfdən daha çox pensiya almaq imkanıdır, digər tərəfdən isə özəl pensiya fondları ilə vətəndaş müqavilə bağladıqda kapitalın bir hissəsini daha tez götürmək hüququna malik ola bilər. Bu artıq ikitərəfli razılaşma əsasında özəl pensiya fondunda yığılan vəsaitin zamana uyğun istifadəsi deməkdir. Bu, vətəndaş üçün daha çox seçim imkanı deməkdir.



***-Bir neçə dəfə pensiya yaşına çatmadan vəfat edən şəxsin hesabına yığılan sığortanın ailəsinə verilməsi məsələsi qaldırılıb. Komitə iclasında da bu təklif oldu. Sizcə, vəfat edən şəxsin pensiya fonduna yığılan vəsaiti hansı formada ailəyə verilə bilər?***

- Pensiya kapitalından istifadə ilə bağlı bizim də mütəmadi olaraq təkliflərimiz var. Onun tərəfdarıyıq ki, pensiya kapitalının bir hissəsi dünyasını dəyişdiyi halda vətəndaşın vərəsələrinə və ya varislərinə ödənilə bilər. Bu həmçinin, pensiya kapitalına yığımlara marağı artırar. Eyni zamanda ailənin pensiya kapitalından istifadəsinə imkan yaradar. Təbii ki, burada fiskal qiymətləndirmənin aparılmasına ehtiyac var. Mövcud imkanlar, pensiya kapitalından daha çox istifadə imkanlarının yaradılması istiqamətində müzakirələr davam etdirilir. Komitə iclasında belə bir təklifin edilməsi ondan xəbər verir ki, pensiya islahatlarının daha da dərinləşməsi əsas hədəflərdən olaraq qalmaqdadır.

***-Pensiya məsələsi ilə bağlı vətəndaşların qaldırdığı məsələlərdən biri də onların ödənilməsi tarixi ilə bağlıdır. Belə ki, pensiya ayın əvvəlində Bakı, Sumqayıt, Abşeronda, ayın sonunda isə digər şəhər və rayonlarda ödənilir. Bu ödənişlərin eyni vaxtda ödənilməməsi nə ilə bağlıdır?***

- Pensiyaların ödənilməsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və xüsusilə, Dövlət Sosial Müdafiə Fondu tərəfindən həyata keçirilir. Pensiyanın ödənilməsində daha konkret vaxtların müəyyənləşdirilməsi və konkret vaxtlarda ödənişlərin həyata keçirilməsi məqsədəuyğun olardı. Bəzi hallarda pensiyaçının kredit borcu var və ya hansısa aylıq xərclərini ödəməlidir. Ona görə də konkret vaxtların müəyyənləşdirilməsi kredit və digər borcların ödənilməsində hər hansı gecikmələrin qarşısını almış olur. Bu, vətəndaşlarımızın sosial təminatı və xərcləri planlaşdırması baxımından vacibdir. Daha konkret zaman çərçivəsində pensiyaların ödənilməsinin həyata keçirilməsini təklif edirik. Mövcud texnoloji infrastrukturun daha da təkmilləşdirilməsinə ehtiyac var. Bu, pensiyaların paytaxt, iri şəhər və bölgələr üzrə ayrı vaxtlarda deyil, ölkə üzrə konkret vaxtda və tam olaraq ödənilməsinə imkan yaradar.

***-Son aylarda bir sıra müavinətlərdə artım oldu. Yaşa görə müavinətdə isə artım baş verməyib. Bu müavinətdə də artımların olması gözlənilirmi?***

-Yaşa görə müavinətin artırılması məqsədəuyğun olardı. Beşinci sosial paket 3 milyondan artıq vətəndaşımızı əhatə etdi. Ümumilikdə, 2025-ci ildə büdcədən sosial istiqamətə 17 milyard manatın ayrılması həyata keçirilib. Bunun fonunda yaşa görə müavinətin artırılması da məqsədəmüvafiqdir. Nəzərə alsaq ki, yaşa görə müavinəti əmək pensiyası ala bilməyən vətəndaşlarımız alır. Onların pensiya yaşı tamam olduqdan sonra əmək pensiyası almaq hüququ yaranmadıqda, məhz yaşa görə müavinətdən istifadə edirlər. Xüsusilə, yaşlı vətəndaşlarımızın daha çox sosial təminata ehtiyacları var. Düşünürük ki, yaşa görə müavinətin artırılması üçün maliyyə qiymətləndirilməsinin aparılması sözügedən müavinətin artırılması ilə bağlı qərarların verilməsinə gətirib çıxara bilər.

***Anar Kəlbiyev***

# Daha bir bahalaşmada oliqarx barmağı

## Ətin qiymətindəki kəskin qiymət artımının pərdəarxası - Məmurlar da məsuliyyət daşıyırlar!

***Son günlərin ən çox müzakirə olunan mövzularından biri ətin qiymətindəki artım və bu bahalaşmanın qarşıdakı günlərdə də davam edəcəyi barədə yayılan xəbərlərdir. Hətta bəzi media orqanları bazarlarda mal ətinin kiloqramının 30 manata qədər qalxacağı ilə bağlı məlumatlar yayıblar. Bildirilir ki, artan qiymətlər xüsusən də ailə büdcəsi məhdud olan və gündəlik rasionunda ət məhsullarına maddi baxımdan onsuz da çətinliklə yer verən vətəndaşları narahat edir. Sosial şəbəkələrdə də ətin bahalaşması ciddi müzakirələr doğurub.***



Dövlət Statistika Komitəsinin məlumatına görə, 2025-ci ildə ət və ət məhsulları demək olar ki, hər ay bahalaşıb. Bu ilin yanvar-iyul aylarında qiymətlər 2024-cü ilin eyni dövrünə nisbətən orta hesabla 6,8 faiz artıb. Son bir ayda isə ətin qiyməti daha 20 faiz bahalaşıb. Proseslərin inkişafı göstərir ki, növbəti aylarda ətin qiyməti rekord səviyyəyə qalxacaq.

Bizim.Media yazıb ki, ətin qiymətinin bahalaşmasının əsas səbəbi yerli istehsalın zəifləməsidir. Yenə Dövlət Statistika Komitəsinin məlumatına görə, 2025-ci il yanvarın 1-i vəziyyətinə ölkə üzrə 6 milyon 850,2 min baş qoyun və keçi, 2 milyon 459,7 min baş iribuynuzlu mal-qara, o cümlədən, 1 milyon 223,1 min baş inək və camış mövcud olub. Bu rəqəmlər ötən illə müqayisədə azdır.

Heyvandarlığın inkişafdan geri qalmasının bir sıra köklü səbəbləri var. Ən əsası odur ki, bu sahə qayğıdan kənarda qalıb. Məsələn, hər il aqrar sektorun əksər sahələrinə dövlət tərəfindən subsidiyalar verilir. Ancaq heyvandarlığa heç bir yardım edilmir, sahənin inkişafı stimullaşdırılmır. Nəzərə alaq ki, yalnız süni mayalanma ilə doğulan hər buzova görə 100 manat verilir. Amma nədənsə təbii yolla doğulan buzovlara subsidiya verilmir. Bu da belə fikir formalaşdırır ki, bu subsidiya da heyvandarlığın inkişafı üçün yox, süni mayalanmanın təşviqi üçün verilir. Təbii ki, bu cür yanaşma fermerləri həvəsdən salır.

Başqa bir problemli məqam isə heyvandarlıqda əsas yem bazası olan yonca sahələrinə verilən subsidiyanın azlığıdır. Qeyd edək ki, yonca sahəsinin hər hektarına cəmi 100 manat subsidiya verilir. Amma aqrar sektorda olan 3-4-cü dərəcəli sahələrə bundan qat-qat artıq subsidiya ayrılır. Məsələn, qaragilə sahəsinin bir hektarına 15 min (?) manat subsidiya verilir. Hər kəs bilir ki, ölkəmizdə qaragilə yabanı bitki sayılır. Meşəlik sahələrdə kifayət qədər qaragilə yetişir. Üstəlik bu giləmeyvəyə olan ehtiyac, yoncaya olan ehtiyacdan ən azı 20-25 dəfə azdır. Kivi bağlarının hər hektarına 9600, moruq, qarağat və böyürtkən bağlarının hər hektarına isə 3200 manat subsidiya verilir. Təəccüblüdür ki, bu bağların da çoxu yabanıdır. Yabanı və əhalinin 5-10 faizi üçün maraqlı olan bu sahəyə külli miqdarda subsidiya verildiyi halda yonca sahəsinə verilən simvolik rəqəm həm təəccüb, həm də təəssüf doğurur.

10 il əvvəl pambıqçılığın inkişaf strategiyası hazırlandı. Həmin strategiyaya əsasən 2021-ci ildə ölkəmizdə ən azı 500 min ton pambıq istehsal edilməli idi. Bunun üçün dövlət fondundakı torpaq sahələri əkin dövriyyəsinə qatıldı. Nəticədə örüş sahələri kütləvi şəkildə ləğv edildi. Məhz bunun hesabına da heyvandarlığın inkişafına böyük zərbə vuruldu. Üstəlik, pambıqçılıq sahəsində də hədəflərə çatılmadı. Son 10 ildə yalnız 2020-ci ildə Azərbaycanda rekord səviyyədə 337 min ton pambıq tədarük edilib. 2024-cü ildə isə cəmi 307 min ton pambıq yetişdirilib ki, bu da vaxtilə qarşıya qoyulmuş hədəflərdən çox-çox uzaqdır. Təəssüf doğuran daha bir fakt odur ki, bir zamanlar pambıq əkilən sahələrdə artıq digər bitkilər əkilir. Bu da həm pambıqçılıqla bağlı qarşıya qoyulan hədəfdən yayınmanı, həm də örüş probleminin böyüməsinin göstəricisidir.

Azərbaycanda heyvandarlığı zəiflədən və ətin bahalaşmasını şərtləndirən amillərdən biri də oliqarx maraqlarıdır. Ekspert açıqlamaları da bunu təsdiqləyir. Məsələn, bir müddət öncə kənd təsərrüfatı məsələləri üzrə ekspert Vahid Məhərrəmov demişdi ki, hazırda istehsalçılar bir o qədər ət istehsal etmirlər. Sitat: "Uzun müddətdir ki, bu sahəni öz əlinə alan oliqarxlar var. Həmin oliqarxlar dövlətdən ucuz kredit əldə edib, güzəştlər qazanırlar. Bu sistem davam etdiyi üçün bir çox fermerlər, bu işlə məşğul olan kəndlilər sıradan çıxacaq. Həmin oliqarxlar torpaq sahələrini ələ keçiriblər..." Başqa bir iqtisadçı ekspert Natiq Cəfərli də bu günlərdə demişdi ki, ətin bahalaşmasında məmur və oliqarxların məsuliyyəti az deyil: "Fermerlərə, mal-qara saxlayan insanlara doğru-düzgün yardımlar edilmir, camaata guya inək paylayırdılar, həmin mal-qara rəsmi TV kamerası çəkən yerdə yıxılırdı... Bəzi məmurlar, oliqarxlar regionlarda əraziləri zəbt edir, fermerlərə, kəndlilərə normal işləmək üçün şərait yaratmırlar, ona görə də, fermer bezir, hər şeyə tüpürüb Bakıya, tikintidə işləməyə gəlir". Qida məsələləri üzrə mütəxəssis Ağa Salamov isə bir neçə gün öncə "Tribunainfo"ya bildirib ki, ildən-ilə qoyun və keçilərin, iribuynuzlu və xırdabuynuzlu heyvanların azalması, (iribuynuzlular məhv olub gedir) yemlərin bahalaşması, örüş yerlərinin olmaması, meqapolis həyat, insanların fermerliyə, bazarda rəqabətə marağının yoxa çıxması, monopoliya bahalaşmaya gətirib çıxarır. Onun sözlərinə görə, kəndlinin əzildiyi bir dövrdə yaşayırıq. Sitat: "Məmur işbazların kəndliyə verdiyi xəstə heyvanları da mediada videolardan gördük. Bu da kəndlinin ələ salınması deməkdir. Nə vaxta kimi kəndli əziləcək, ildən-ilə bahalaşma da olacaq...."

Bütün bu faktlar və mülahizələr fonunda bir daha aydın olur ki, ətin bahalaşmasında dünya bazarlarında gedən proseslər (məsələn, yemin qiymətinin artması)lə yanaşı, daxili faktorlar da rol oynayır. Yəni burada obyektiv amillərlə yanaşı, subyektiv faktorlar - bəzi məmurların işbilməzliyi, yarıtmaz fəaliyyəti, oliqarxların maraqları, inhisarçılıq meylləri də mütləq vurğulanmalıdır. Və həmin neqativ halları aradan qaldırmadıqca, ərzaq və qida məhsullarının, o cümlədən ətin bahalaşması davam edəcək. Onsuz da sadə vətəndaşın qida rasionunda normadan az yer tutan ət çoxlarımız üçün getdikcə daha çox əlçatmaz olacaq...

***Toğrul Əliyev***




# Prokurorluq cinayət işi açdı, nazirlik cərimələdi

## "General Hospital" isə hələ də saxta arayış verir

***Paytaxtın Suraxanı rayonunun Qaraçuxur qəsəbəsi ərazisində yerləşən "General Hospital" yenə saxta sağlamlıq arayışı qalmaqalı ilə gündəmə gəlib.***

Bu barədə "Unikal"a vətəndaş Qurbanova Zərxanım İlqar qızı məlumat verib. O bildirib ki, 14 nömrəli Bakı Peşə Məktəbinə təqdim etmək üçün sağlamlıq arayışı almalı imiş:

"9 sentyabr tarixində sağlamlıq arayışını əldə etmək üçün "General Hospital"a müraciət etdim. Həmin klinikada bunun üçün məndən 40 manat pul vəsaiti tələb etdilər. Həmin məbləği klinikaya verdikdən sonra heç bir yoxlanışdan keçmədən baş həkim Rüstəm Mikayılovun imzası ilə mənə sağlamlıq arayışını təqdim etdilər", - deyə o əlavə edib.

Xatırladaq ki, bir müddət əvvəl "General Hospital"da əməliyyat keçirilib. Nəticədə saxta sağlamlıq arayışı qalmaqalına görə cinayət işi açılmışdı. Səhiyyə Nazirliyi isə 17 mart 2025-ci ildə "General Hospital" haqqında İnzibati Xətalar Məcəlləsinin 215.4-cü (Qanunvericiliyə uyğun olaraq sertifikatsiyadan keçməyən şəxslərin (işçilərin) praktik tibb və əczaçılıq fəaliyyətinə buraxılmasına görə) maddəsi ilə inzibati protokol tərtib edib. Protokol baxılması üçün Suraxanı Rayon Məhkəməsinə göndərilib. Məhkəmə protokolu əsaslı hesab edib və "General Hospital"ın 6 min manat cərimə edilməsi barəsində qərar qəbul edib.

***Murad İbrahimli***

# Nazirdən MİQ imtahanlarının ödənişli olmasına reaksiya

***"MİQ hamı üçün ödənişli olmayacaq, ilk dəfə iştirak edənlər, şəhid ailələrinin üzvləri və digər xüsusi şəxslər üçün imtahan ödənişsiz olacaq".***

"Unikal" xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev yeni tədris ilinə dair media üçün brifinqdə deyib.

"MİQ imtahanı üçün 60 min adam müraciət edir, 48 min nəfər gəlir, bu bizim üçün əlavə xərcdir. 12 min şəxsin gəlməməsi onlara ayrılmış texniki resursun istifadə olunmaması deməkdir. MİQ imtahanının qiyməti çox yüksək olmayacaq. Məqsəd pul yığmaq deyil, məsuliyyət yaratmaqdır", - nazir bildirib.

# "Formula 1"ə görə bəzi məktəblərdə dərslər onlayn olacaq

***"Formula 1" Azərbaycan Qran-Prisi günlərində bəzi məktəblərdə dərslər onlayn olacaq.***

"Unikal" xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev sentyabrın 11-də media üçün keçirdiyi brifinqdə deyib.

Onun sözlərinə görə, bununla bağlı məktəblərlə danışıqlar aparılır, siyahı açıqlanacaq.

34_27 IYUl-QARA.qxd 9/11/2025 6:13 PM Page 9





## "Su qıtlığının tam qarşısını almaq mümkün deyil" - Muxtar Babayev

***Su qıtlığı ilə bağlı risklərin tam qarşısını almaq mümkün deyil, amma adaptasiya planlarının hazırlanması və bu şəraitə hazırlaşmaq Azərbaycan üçün də vacibdir.***

"Unikal" xəbər verir ki, bunu Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayev Bakıda keçirilən 2-ci Beynəlxalq Su Təsərrüfatı Sərgi və Konfransı - "Baku Water Week" çərçivəsində təşkil olunan "Su idarəetməsində liderlik: Regional və qlobal perspektivlər" adlı panel müzakirələrində deyib.

Onun sözlərinə görə, Azərbaycanda buzlaqların əriməsi və qar ehtiyatlarının azalması prosesi davam edir: "Bu, Azərbaycanla yanaşı bütün dünyaya təsir edən prosesdir. Hər il Böyük Qafqaz və xüsusilə Kiçik Qafqaz dağlarına təşkil olunan ekspedisiyalar bu gedişatı təsdiqləyir. Dağlarımızda qar ehtiyatları ilbəil azalır, buzlaqlar isə əriməyə məruz qalır. Təəssüf ki, bu proses bütün dünyada müşahidə olunur. Əsas səbəb iqlim dəyişikliyi və orta temperaturun artmasıdır, digər səbəb isə yağıntıların qeyri-bərabər bölüşdürülməsi və intensivliyidir. Nəticədə su ehtiyatları azalır, daşqınlar, sel və digər hidrometeoroloji hadisələr daha çox baş verir".

M. Babayev bildirib ki, su problemlərinin həlli və adaptasiya tədbirləri həm dövlətlərin, həm də beynəlxalq təşkilatların da aktiv iştirakı ilə mümkündür: "Artıq illərdir ki, Azərbaycan beynəlxalq təşkilatlar və maliyyə institutları ilə birlikdə bu məsələləri müzakirə edir, müxtəlif su layihələri həyata keçirir. Lakin narahatlıq doğuran məqam ondan ibarətdir ki, dünyada suya tələbat artır. Ölkələr artıq şərti olaraq üç qrupa bölünür: su ehtiyatı bol olan, ehtiyaclarını nisbətən ödəyə bilən və su qıtlığı ilə üzləşən ölkələr. Təəssüf ki, su qıtlığı riski ilə üzləşən ölkələrin siyahısı hər il genişlənir və Azərbaycan da bu siyahıda yer alır".

## "Bəzi özəl məktəblərdə təhsil haqqı 30 mindir" - Deputat

***"Bəzi özəl orta məktəblərdə təhsil haqqı çox yüksəkdir. Bəzi məktəblərdə bu məbləğ 30 min civarındadır. Hesab edirəm ki, bu məsələnin dövlət tərəfindən tərəfindən tənzimlənməsi məsələsini nəzərdən keçirməliyik. Hətta bəzi rəqəmlər daha yüksəkdir".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Elm və təhsil komitəsinin bu gün keçirilən iclasında deputat Ceyhun Məmmədov deyib. O bildirib ki, bu il özəl orta məktəblərə daha çox meyl var. Deputat qeyd edib ki, bəzi universitetlərdə təhsil haqları qaldırılıb: "Bu, cəmiyyətdə geniş müzakirə olundu. Qiymət artımı insanların imkanına və tədrisin keyfiyyətinə uyğun olmalıdır. Bu məsələ dövlətin nəzarəti ilə aparılmalıdır. İstənilən universitet istədiyi məbləği müəyyənləşdirməli deyil. Təhsil haqqının qalxması tələbələrin xaricdə təhsil almağa üstünlük verməsinə aparıb çıxaracaq. Hesab edirəm ki, bu məsələ sırf universitetlərin öz öhdəsinə buraxılmalı deyil.

C.Məmmədov vurğulayıb ki, məktəbli forması məsələsi vahid olmalıdır: "Çünki valideynlər məktəbi dəyişəndə ciddi çətinliklər yaşayırlar. Hər dəfə yeni paltara pul verməli olurlar".

***Anar Kəlbiyev***

# Etibar Pirverdiyevə bəd xəbər üstünə bəd xəbər

## Bir yandan şirkətinin qazancı yarıbayarı azalıb, o biri yandan bankındakı problemli kreditlər kəskin artıb - Sabiq "işıq şefi"nin biznesində yeni çöküş?!

***"Azenco" ASC 2024-cü ili mənfəətlə başa vursa da, 2023-cü illə müqayisədə şirkətin qazancı təxminən yarıbayarı azalıb. Belə ki, adıçəkilən ASC 2024-cü ili 1,85 mln. manat xalis mənfəətlə bağlayıb. Bu isə ötən ilin eyni dövrünə nisbətən 47,4% və ya 1,68 mln. manat azdır. Məsələ ondadır ki, şirkət 2023-cü ili 3,53 mln. manat xalis mənfəətlə bitirmişdi.***

Hesabat dövründə "Azenco"nun satış gəlirləri 32,47 mln. manatdan 31,31 mln. manata enib (-3,6%). Bunun fonunda ümumi mənfəət 4,41 mln. manatdan 3,29 mln. manata düşüb (-25,3%). Lakin əməliyyat mənfəəti 4,79 mln. manatdan 5,75 mln. manata yüksələrək 20% artım nümayiş etdirib. Bu, əsasən inzibati və sair xərclərin azalması ilə bağlıdır.



Ümumilikdə satış gəlirlərinin azalması və maliyyə xərclərinin artması xalis mənfəətin kəskin azalmasına təsir edib.

"Azenco"nun cəmi aktivləri 2023-cü ilin sonundakı 231,45 mln. manatdan 2024-cü ilin sonunda 235,62 mln. manata qalxıb (+1,8%). Aktivlərin strukturunda uzunmüddətli aktivlər -5,7% azalaraq 11,5 mln. manat, qısamüddətli aktivlər isə +2,1% artaraq 223,8 mln. manat olub.

Şirkətin cəmi öhdəlikləri 54,55 mln. manatdan 58,77 mln. manata yüksəlib (+7,8%). Kapital isə 177,06 mln. manatdan 176,85 mln. manata cüzi azalıb (-0,1%). Başqa sözlə, şirkətin balansı genişlənib, lakin artım əsasən borclar hesabına baş verib.

Qeyd edək ki, " Azenco" ASC Azərbaycanda tikinti və quraşdırma, xüsusilə energetika layihələri üzrə əsas podratçılardan sayılır. Onun nizamnamə kapitalı 6,8 milyon manat, qanuni təmsilçisi isə Hacıyev Pərviz Firuhət oğludur. Mediada yayılan məlumatlarda "Azenco Group"un "Azərenerji"nin sabiq prezidenti Etibar Pirverdiyevə aid olduğu bildirilir. Həmin məlumat indiyədək təkzib olunmayıb.

Maraqlı burasıdır ki, Pirverdiyevə məxsus başqa bir şirkətlə bağlı da ürək açmayan statistika ortaya çıxıb. Söhbət "Expressbank"ın vaxtı keçmiş kreditlərinin ciddi şəkildə "şişməsindən" gedir. Valyuta.az-ın məlumatına görə, bankın vaxtı keçmiş kreditləri kəskin artıb.

Belə ki, bankın maliyyə göstəricilərinə əsasən, 2024-cü ilin ilk yarısında 6,9 milyon manat olan vaxtı keçmiş kreditlərin həcmi 2025-ci ilin analoji dövründə 13,1 milyon manata yüksəlib. Yəni, son bir ildə vaxtı keçmiş kreditlər 90% artıb.

Hesabat dövründə vaxtı keçmiş kreditlərin ümumi portfeldə xüsusi çəkisi 1,57 faizdən 2,60 faizə yüksəlib.

Ən böyük artım vaxtı keçmiş biznes kreditlərində müşahidə olunur. Bu seqmentdə vaxtı keçmiş kreditlər 2,2 milyon manatdan 4,9 milyon manata yüksəlib. Başqa sözlə, 2,2 dəfə artıb. Bu da bankın korporativ müştəri seqmentində risklərin yüksəldiyini göstərir.

İstehlak kreditləri üzrə vaxtı keçmiş borclar 68% artaraq 4,2 milyon manatdan 7,1 milyon manata çatıb. Daşınmaz əmlak kreditlərində isə gecikmiş borclar iki dəfədən çox artaraq 545 min manatdan 1,2 milyon manata çatıb.

Ümumilikdə, 2025-ci ilin ilk yarısında "Expressbank"ın vaxtı keçmiş kredit portfeli əvvəlki ilin eyni dövrü ilə müqayisədə həm həcm, həm də xüsusi çəki baxımından ciddi şəkildə "şişib".

Xatırladaq ki, "Expressbank" 1992-ci ildə yaradılıb. Onun nizamnamə kapitalı 112,545 milyon manatdır. Bankın səhmlərinin 19,98%-i Seyidov Hafiz Mirzağa oğluna, 30,85%-i "Enerqoservis" MMC-yə və 0,38%-i Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinə aiddir. Burada ən böyük pay isə Etibar Pirverdiyevin şirkətinə məxsusdur. Bir az da dəqiqləşdirsək, bankın səhmlərinin 48,78%-i "Azenco Group"dadır. Bu şirkət həm də "Expressbank"ın qanuni təmsilçisi kimi çıxış edir, elə ona görə də KİV-də Pirverdiyev bankın qeyri-rəsmi sahibi kimi göstərilir.

Onu da deyək ki, 2000-2001-ci illərdə Azərbaycan Respublikası Dövlət Əmlakı Nazirliyinin Özəlləşdirilmiş səhmdar cəmiyyətlərində dövlət payının tənzimlənməsi şöbəsinin rəisi, «Bakıelektrikşəbəkə» Açıq Tipli Səhmdar Cəmiyyətinin sədri vəzifələrində işləyən Pirverdiyev 2001-ci ildə "Azərenerji" ASC-nin prezidenti təyin edilib. 2018-ci il iyulun 3-də Mingəçevir şəhərindəki "Azərbaycan İstilik Elektrik Stansiyası"nda baş verən və Azərbaycanın enerji sistemində ciddi problemləri ortaya çıxaran, Bakı və Gəncə də daxil olmaqla 39 şəhər və rayonunun elektrik enerjisinin kəsilməsi, dövlətə və əhaliyə böyük ziyan dəyməsi ilə nəticələnən qəzadan bir müddət sonra o, vəzifəsindən uzaqlaşdırılıb.

Hazırda sabiq "işıq şefi"nin biznes fəaliyyətilə məşğul olduğu, bu fəaliyyətini həm Azərbaycanda, həm də Rusiyada həyata keçirdiyi deyilir. "Expressbank" və "Azenco Goup"la yanaşı, E.Pirverdiyevin nəzarətində elektrik avadanlıqlarının satışı ilə məşğul olan ticarət obyektlərinin, iri heyvandarlıq təsərrüfatlarının olduğu da qeyd edilir. Bundan başqa, onun tikinti sektorundakı bəzi şirkətlərdə pay sahibi olduğuna dair də iddialar var.

***Sənan Mirzə***

34_27 IYUI-QARA.qxd 9/11/2025 6:13 PM Page 10



# Keçmiş nazirlərin müəmmalı “London sevgisi”

## Keçmiş iri məmurlar bizneslərini və qeyri-leqal pullarını niyə İngiltərə paytaxtına daşıyırlar?

***Keçmiş iqtisadi inkişaf naziri Heydər Babayevin həyat yoldaşı Aliyə Babayeva Lüksemburqdakı şirkətini bağlayıb, Avropadakı bütün biznesini Böyük Britaniyaya köçürüb. Bu barədə araşdırmaçı jurnalist Cavanşir Həsənli məlumat və sənədlər yayıb.***

O bildirib ki, keçmiş nazirin həyat yoldaşına məxsus Lüksemburqdakı MERCURY HOLDİNGS Sarl. 2017-ci ildən bu ilin yanvarına qədər fəaliyyət göstərib və birinci il onun aktivlərinin həcmi 82,3 milyon avro olub: “Aliyə Babayeva Britaniyada eyni adlı şirkəti 2023-cü ilin fevralında təsis edib, bu ilin yanvarında Lüksemburqdakı şirkət ləğv olunan kimi Britaniya Şirkətlər Evində yeni şirkətin benefissiarı elan olunub. Aliyə Babayeva Avropadakı əsas şirkəti üzərindən Gürcüstanın sığorta bazarında aktiv olan JSC PRIME INSURANCE-yə də nəzarət edir. 2023-cü ili əhatə edən son maliyyə hesabatına görə Babayevanın sığorta şirkətinin aktivləri 11 milyon 828 min lari olub”.



Qeyd edək ki, Heydər Babayevin Azərbaycanda yüksək vəzifəyə təyin olunana qədər də Avropada biznesi vardı. Belə ki, o, 1981-ci ildən SSRİ Xarici İqtisadi Əlaqələr Bankında valyuta mühafizəsi müfəttişi, idarə rəisinin müavini, 1992-ci ildən “Xariciiqtisadibank”ın Türkiyədə baş nümayəndəsi, 1997-ci ildən “Mostbank”ın vitse-prezidenti, həmin bankın Böyük Britaniyada baş nümayəndəsi vəzifələrində işləyib. 1999-cu ildən Azərbaycan Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri, 2005-2008-ci illərdə isə iqtisadi inkişaf naziri olub. Babayevin biznesi və sərvəti öncə Komitə sədri, ardınca nazir olduqdan sonra qatbaqat böyüyüb.

Onun öz biznesini İngiltərəyə daşımasında maraqlı məqam isə bizim bir çox sabiq məmurlarımızın da vaxtilə eyni yoldan keçmələridir. Belə ki, keçmiş nəqliyyat naziri Ziya Məmmədovun, vaxtilə kənd təsərrüfatı naziri, sonralar bir müddət baş nazir müavini işləmiş İsmət Abbasovun oğlanlarının da Londonda şirkətlərinin olduğu bəllidir. Xüsusilə Z.Məmmədovun oğlu Anarın burada KFC restoranlar şəbəkəsinin sahibinə çevrildiyi sir deyil. KFC françayzinqinə sahib olan “B.J.R. Foods Limited” şirkətinin 75%-lik payını Anar Məmmədov 23 iyul 2021-ci il tarixində satın alıb. Ləğv edilmiş milli təhlükəsizlik naziri Eldar Mahmudovun övladları da məhz İngiltərə paytaxtında məskunlaşıblar.

Başqa bir sabiq kənd təsərrüfatı naziri Heydər Əsədovun oğlu Asif Əsədzadənin də Londonda yaşadığı barədə illər öncə məlumatlar yayılmışdı. Hətta onun cibində Britaniya vətəndaşı olmasını təsdiqləyən sənəd gəzdirdiyi deyilirdi. 2017-ci ildə Asif Əsədzadə London küçələrində Az 90 HO 505 dövlət nömrə nişanlı “Porsche” ilə “avtoşluq” etməsi əks olunan video ilə də gündəmə gəlmişdi.

Dövlət Dəmir Yolu İdarəsinin sabiq rəisi və ləğv edilmiş Nəqliyyat Nazirliyinin keçmiş nazir müavini Arif Əsgərovun oğlu Elnar Əsgərzadənin də London macəraları barədə mətbuat çox yazıb. Onun adı ilk dəfə Azərbaycan mətbuatının gündəminə təhsil aldığı Londonda özünün əvəzinə digər bir şəxsi imtahana yollaması ilə gəlmişdi. Məlum olmuşdu ki, Elnar Əsgərov Londonda olarkən “Credit Suisse” bankında treyder işləyən 34 yaşlı Ceromi Dreni özünün əvəzindən imtahan verməyin mümkünlüyünə inandırıb. Əvəzində hər imtahan üçün ona 2 min funt-sterlinq ödəmişdi(manatın indiki kursu ilə təxminən 4 min 500 manatdan artıq). Ceromi Elnar Əsgərovun adına düzəldilmiş saxta vəsiqədən istifadə edərək, onun əvəzinə 8 dəfə imtahana girib, sonuncuda isə professor ondan şübhələnib və fırıldağın üstü açılıb. Qalmaqal haqda Britaniyanın nüfuzlu nəşrləri sayılan “The Yorkshir Post” və “The Daily Mail” də yazmışdılar. Sonradan isə Elnar Əsgərovun Bakıya qayıtması barəsində məlumat yayılmışdı. Onun London macəraları bununla da bitmirdi. Elnar Londonda təhsil alarkən adam bıçaqlaması haqda da xəbərlər vardı. E.Əsgərovun bıçaqladığı şəxsin milliyyətcə ingilis olduğu və hadisənin xuliqanlıq zəminində baş verdiyi bildirilirdi.

Başqa bir nümunə: Azərbaycan Beynəlxalq Bankının (ABB) İdarə Heyətinin sabiq sədri Cahangir Hacıyevin həyat yoldaşının Londondakı mülkləri, milyonlarla dollar dəyərindəki qızıl-zinət əşyaları alması və digər maliyyə maxinasiyaları London məhkəməsinin qərarından sonra onun milyonlarına əl qoyması ilə nəticələndi.

Və ya: Britaniyada deputat Cavanşir Feyziyevin ailə üzvlərinə məxsus Böyük Britaniyadakı bank hesablarında olan milyonlarla funt-sterlinqin müsadirə edilməsinə qərar verildiyini yada salaq. Həmin vaxt Britaniyanın Milli Cinayət Agentliyinin məlumatında Feyziyevlər öz çirkli pullarının “yuyulması” üçün Estoniya və Latviyada saxta şirkətlərdən istifadə etməkdə günahlandırılırdı. Bildirilirdi ki, həmin köçürmələrin bəziləri qanuni və çox böyük biznes əməliyyatlarını sübut edən sənədlər, o cümlədən vergi hesab-fakturalar və müqavilələrlə müşayiət olunub.

Bəs Azərbaycanın eks nazirlərinə və onların övladlarına Londonu sevdirən nədir?

Ekspertlərin dediklərinə görə, Böyük Britaniyanın hüquq-mühafizə sistemi və biznes qanunvericiliyi dünyada ən liberal sayılır. Onillərdir bu ölkə bank hesablarının qorunmasından tutmuş öz vəsaitlərini Londona daşıyan insanlara hüquqi təminat vermək baxımından ən yaxşı təkliflərlə çıxış edirdi. Elə bu səbəbdən də dünyanın hər yerindən müxtəlif yollarla, ələlxüsus qeyri-leqal şəkildə pul qazananlar Britaniyanın maliyyə sisteminə etibar edir, pullarını oraya daşıyırlar. Hətta Rusiyadan 1990-cı illərin əvvəllərindən Ukrayna müharibəsi başlayanadək 2 trilyon dollara yaxın vəsaitin məhz Londona daşındığına dair iddialar var.

Düzdür, 2016-207-ci ildən başlayaraq Böyük Britaniya hökuməti korrupsiya ilə mübarizə çərçivəsində sərt addımlar atmağa başlayıb, məsələn, dünyada ilk dəfə olaraq oliqarxların daşınmaz əmlakının xüsusi reyestrini yaratmağa start verib. Lakin qeyri-leqal qazanılmış sərvət sahibləri üçün London hələ də öz cazibəsini və etibarlılığını qoruyur...

***Sənan Mirzə***



## "Bağçalarda işləyən tərbiyəçilər sertifikasiyaya cəlb ediləcək" - Nazir

***Bağçalarda işləyən tərbiyəçilər sertifikasiyaya cəlb ediləcək.***

”Unikal” xəbər verir ki, bu sözləri elm və təhsil naziri Emin Əmrullayev yeni tədris ilinə dair bu gün keçirilən brifinqdə deyib.

O bildirib ki, sertifikasiyanın 2026-cı ildə tətbiq edilməsi gözlənilir.

”Cari ildə 226 min uşaq məktəbəqədər təhsilə cəlb ediləcək. 520 bağçada 50 minə yaxın uşaq hazır qida ilə təmin ediləcək. Eyni zamanda ötən tədris ilində monitorinqlər nəticəsində 18 bağça müdirinin fəaliyyətinə xitam verilib”, - deyə nazir qeyd edib.

## 130 mindən çox uşaq 1-ci sinifdə təhsil alacaq

***2025/2026-cı tədris ilində 130 mindən çox uşaq 1-ci sinifdə təhsil alacaq.***

”Unikal” xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev yeni tədris ilinə dair keçirilən brifinqdə deyib.

O bildirib ki, ümumilikdə 1,6 milyon şagirin təhsil alması gözlənilir.

## Nazirin iştirakı ilə dərsliklərlə bağlı dinləmə keçiriləcək

***Milli Məclisin Elm və təhsil komitəsində dərsliklərlə bağlı dinləmə keçiriləcək.***

”Unikal” xəbər verir ki, bunu komitənin bu gün keçirilən iclasında komitə sədri Anar İsgəndərov deyib.

O bildirib ki, elm və təhsil naziri Emin Əmrullayevin iştirakı ilə belə dinləmənin keçirilməsi nəzərdə tutulub.

***Anar Kəlbiyev***

## "Lisey və gimnaziyaların sayının 100-ə çatmasını planlaşdırırıq"

***”Biz lisey və gimnaziyalarda oxuyan uşaların sayının artırılmasını istəyirik”.***

”Unikal” xəbər verir ki, bu sözləri elm və təhsil naziri Emin Əmrullayev yeni tədris ilinə dair brifinqdə deyib.

O bildirib k, bu sistemi vahidləşdirməyə çalışırlar.

”Ölkədə lisey və gimnaziyaların sayının 100- ə çatmasını planlaşdırırıq.Biz lisey və gimnaziyaların məzun keyfiyyətini görürük. Onların arasından alimlər çıxacaq. Bunu görmək üçün zaman lazımdır.”- deyə nazir qeyd edib.

34_27 IYUl-QARA.qxd 9/11/2025 6:13 PM Page 11



## Dövlət sərhədində iki nəfər saxlanıldı




***Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Lənkəran" sərhəd dəstəsinin xidməti ərazisindən sərhədi keçən İran vətəndaşları ölkələrinə təhvil verilib.***

Bu barədə "Unikal"a Dövlət Sərhəd Xidmətindən məlumat verilib.

Bildirilib ki, dağlıq və sıx meşəlik hissəsində istiqaməti itirərək İrandan Azərbaycana keçən İran vətəndaşları - 2002-ci il təvəllüdlü Sadeq Necat Muhammed Reza Ruhullah və 2000-ci il təvəllüdlü Sadeq Necat Əmirhüseyn Ruhullah sərhədçilər tərəfindən saxlanılıb

Araşdırma aparıldıqdan sonra qeyd olunan şəxslər rəsmi qaydada qarşı tərəfə təhvil verilib.

## DYP sürücülərə müraciət etdi

***Bakı Şəhər DYP İdarəsi yeni tədris ilinin başlanması ilə əlaqədar hərəkət iştirakçılarına müraciət edib.***

"Unikal" xəbər verir ki, müraciətdə deyilir: "Paytaxtda yeni tədris ilinin başlanması ilə əlaqədar ku?c?ə və prospektlərdə, xu?susilə də təhsil mu?əssisələrinin yerləşdiyi ərazilərdə nəqliyyat vasitələrinin və piyadaların hərəkət intensivliyi artacaqdır.

Bunları nəzərə alaraq, bütün sürücülərdən xahiş edirik ki, yol hərəkəti qaydalarına ciddi riayət etsinlər, əsasən də fərdi nəqliyyat vasitələri ilə şagirdləri məktəbə aparan sürücülər dayanma-durma qaydalarını pozmamaqla avtomobillərini icazə verilən ərazilərdə saxlasınlar ki, digər hərəkət iştirakçılarının rahat və fasiləsiz hərəkətinə mane yaratmasınlar.

Eyni zamanda, piyadalara səki ilə hərəkət etməklə avtomobil yollarına çıxmamağı və hərəkət hissəsini piyada keçidləri ilə keçməyi, valideynlərə isə azyaşlı uşaqları nəzarətsiz qoymamağı tövsiyə edirik".

## Azərbaycanda ilk dəfə qadın hərbi həkimlər hazırlanacaq

***Azərbaycanda ilk dəfə olaraq qadın hərbi həkimlər hazırlanacaq.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Tibb Universiteti məlumat yayıb.

Belə ki, yeni tədris ilində ali təhsil müəssisəsinin Hərbi tibb fakültəsində bu ixtisas üzrə 110 oğlan, 10 qız tələbə adını qazanıb.

## "Barama" bağçasında azyaşlı zorakılığa məruz qaldı - DİN-dən açıqlama

***Bakının Nəsimi rayonunda yerləşən uşaq bağçasında dayə uşaqlardan birinə qarşı kobud rəftar edib.***

"Unikal" xəbər verir ki, bu barədə uşağın valideyni Aysel Geibi Mokarrami Baku.ws-yə şikayət edib.

Onun sözlərinə görə, Hüseynbala Əliyev küçəsi, 21A ünvanında yerləşən "Barama" adlı uşaq bağçasında övladı A.G.M. Fatimə adlı dayə tərəfindən şiddətə məruz qalıb.

"Dayə uşağın boğazından tutub və qaldırıb. Uşağın boğazında və qollarında cızıq izləri var. Bu barədə hüquq-mühafizə orqanlarına bildirmişik. Ekspert rəyini isə bu gün hazır ediblər. İstəyirəm ki, övladıma bunu edən cəzalandırılsın", - deyə Aysel Geibi Mokarrami bildirib.

DİN-in Mətbuat Xidmətinin əməkdaşı Elbrus İbrahimov bildirib ki, sentyabr ayının 2-də Bakının Nəsimi rayonunda yerləşən bağçaların birində uşağa qarşı kobud rəftar edilməsi ilə bağlı polisə məlumat daxil olub: "Məsələ ilə bağlı ərazi üzrə polis orqanında təhqiqat araşdırması aparılır".

# Sabiq icra başçısının 235 milyon manatlıq hotelinin gizlinləri

## Razim Məmmədov qiyməti fantastik məbləğlərlə ölçülən obyektin sahibi necə olub?

***Novxanı qəsəbəsində, dəniz kənarında yerləşən "Mariana Trench" hotel daşınmaz əmlak saytında satışa çıxarılıb. Satış elanında hotelin 235 milyon 818 min 750 manata satışa çıxarıldığı qeyd olunub.***

"Yeni avaz"ın məlumatına görə, hotelin ümumi sahəsi 18 min 954 kvadrat metrə bərabərdir.

Mətbuatda satışa çıxarılan hotelin Xətai Rayon İcra Hakimiyyətinin sabiq başçısı Razim Məmmədova məxsus olması barədə iddialar yer alıb.

R.Məmmədov 2006-2018-ci illərdə Xətai rayonuna rəhbərlik edib. O, keçmiş təhsil nazirinin müavini Zaman İsgəndərovun bacısı oğludur. Zaman İsgəndərovun öz oğlu isə vaxtilə deputat olub - 2005-ci ildə III Çağırış Milli Məclisin üzvü seçilib.



1999-cu ildə yaradılmış "Real-İnşaat" firmasının həmtəsisçisi, 2004-cü ildə isə Sumqayıt şəhərində qurulan "Real Tibb Mərkəzi" MMC-nin təsisçisi və direktoru olan R.Məmmədovun məhz nazir müavini olan dayısı sayəsində gözlənilmədən icra başçısı təyinatı aldığı iddia edilir.

R.Məmmədovun icra başçısı işləyərkən medianın ən çox tənqid, vətəndaşların isə ən çox şikayət etdiyi rayon rəhbərlərindən biri kimi ad çıxarıb. Xətai sakinləri onun icra başçılığı dönəmində yaşıllıqların kütləvi şəkildə məhv edilərək, yerində binalar, ticarət obyektləri, kafe-restoranlar, şadlıq evləri tikilməsini hələ də yaxşı xatırlayırlar.

Təsadüfi deyil ki, Razim müəllim icra başçısı təyin edildikdən cəmi bir neçə il sonra onun topdağıtmaz sərvəti barədə sensasiyalı xəbərlər KİV səhifələrini bəzəməyə başlamışdı. Məsələn, belə xəbərlərin birində deyilirdi ki, o, öz oğluna 300 min dollar dəyərində avtomobil alıb. İddialara görə, həmin dəbdəbəli maşın Almaniyadan Razim Məmmədovun övladı üçün xüsusi olaraq sifariş edilib. "Porsche Panamera" markalı bu avtomobil Bakıya 2010-cu ilin sonlarında gətirilib. Avropa bazarlarında 2009-cu ildən satışa çıxarılan həmin avtomobillər elə də ucuz və tez tapılan mal deyil. "Xetçbek" sinfinə aid olan bu maşınların minimal qiyməti isə o vaxt 180 min avro imiş. Lakin ekskluziv variantlar daha bahadır - qiymətlər 270-400 min avro arasında dəyişir". O da iddia edilirdi ki, həmin vaxt icra başçısının oğlunun cəmi 16 yaşı olub.

R.Məmmədovla bağlı daha bir ağlasığmaz iddiada isə deyilirdi ki, onun özü rayon rəhbəri işləyərkən həm də hündürmərtəbəli bina tikintisilə məşğul olduğundan inşa etdirdiyi göydələnlərin az qala hamısında bir, yaxud bir neçə mənzil sahibidir. Novxanı başda olmaqla, istirahət və turizm zonalarında çox sayda obyektə sahibləndiyi deyilən keçmiş icra başçısı ilə bağlı yuxarıda anons etdiyimiz ağlasığmaz iddia isə belədir: Razim Məmmədovun yalnız Bakının mərkəz hissəsində 75 mənzili var, mənzillər yüksək qiymətə lüks təmir edilib, onun ən sevimli mənzili keçmiş "Muğan" otelinin yerində tikilən hündürmərtəbəli binadadır. "Həmin binada 4 mərtəbəni alan Razim Məmmədov mərtəbələrin arasını açmaqla ağılasığmaz gözəllikdə bir saray yaradıb. Hündürmərtəbəli binadakı bu sarayında hovuz, böyük akvariumlar, bir sözlə, ən böyük villalardakı bütün imkanlar var" - illər öncə yenə yerli media yazırdı.

Lakin maraqlıdır ki, sabiq icra başçısı özü barəsində bu informasiyaları indiyədək nə təsdiq, nə də təkzib edib. Elə Novxanıda satışa çıxarılan 235 milyon manatlıq hoteldə adının hallanmasını sükutla qarşıladığı kimi!

Yeri gəlmişkən, Razim Məmmədov icra başçısı postunu itirdikdən bir müddət sonra - 2019-cu ildə Prezident Administrasiyasının Regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsində baş məsləhətçi vəzifəsinə təyin olunub. Bu təyinatda Administrasiyanın sabiq rəhbəri Ramiz Mehdiyevin həlledici rol oynadığı deyilir. Halbuki R.Məmmədov Xətai rayonunun rəhbərliyindən uzaqlaşdırılınca bu, yerli sakinlər tərəfindən şadyanalıqla qarşılanmışdı.

Əslində hələ Xətainin icra başçısı olduğu dövrdə Razim Məmmədov Bakı meri olmağa çalışırdı. Lakin bu istəyinə çata bilmədi. Haqqında ciddi korrupsiya və rüşvət iddiaları onun həm icra başçısı vəzifəsini itirməsində, həm də Bakı meri təyin olunmamasında əsas amil sayılır. Hesab edilir ki, hakimiyyətdəki "köhnə qvardiyaçı"lardan olan R.Məmmədov məhz bunun sayəsində işsiz qalmayıb. Artıq "köhnə qvardiya"dan ortada demək olar ki, kimsə yoxdur, bu səbəbdən, R.Məmmədov hələ də icra başçısı postunu tutmuş olsaydı, yəqin ki, anti-korrupsiya əməliyyatları nəticəsində saxlanılan rayon rəhbərlərinin siyahısında onun da adını oxuyardıq...

***Toğrul Əliyev***

34_27 IYUI-QARA.qxd 9/11/2025 6:13 PM Page 12



## 6.3.16. Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# İnnovativ iqtisadiyyatın inkişafına dövlətdən mühüm dəstək

## İndiyədək KOBİA tərəfindən 220 mikro və kiçik sahibkarlıq subyektinə “Startap” şəhadətnaməsi verilib

***Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafı dövlətin prioritet hesab etdiyi sahələrdəndir. Ölkə iqtisadiyyatında innovativ biznesin inkişafını stimullaşdırmaq da dövlətin əsas hədəflərindəndir. Bu gün biz bir sıra sahələrdə innovativ biznesin sürətlə inkişaf etdiyini görürük.***

“Unikal” qəzeti ölkə iqtisadiyyatında innovativ biznesin inkişafını stimullaşdırmaq məqsədilə hansı işlərin görüldüyünü araşdırıb.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) qəzetimizin sorğusuna cavabda bildirilib ki, KOBİA tərəfindən startaplara müxtəlif istiqamətlərdə dəstək göstərilir.

Verilmiş “Startap” şəhadətnamələri bir çox istiqamətləri əhatə edir. Bu şəhadətnamələr sayəsində isə sahibkarlar bir sıra güzəşt və üstünlüklər əldə edirlər.

Buna misal kimi isə startap ekosisteminin vacib elementlərindən olan “Startap” şəhadətnaməsini, startaplara qrantların verilməsini, Startap İnkişaf Mərkəzinin fəaliyyətini, startaplara təlim, məsləhət xidmətlərinin göstərilməsini, maliyyəyə çıxış üçün biznes planın hazırlanmasına dəstəyi, onların məhsul və xidmətlərinin yerli və beynəlxalq sərgilərdə nümayiş olunmasını, yerli və beynəlxalq yarışlarda iştiraka dəstəyi qeyd etmək olar.

Qeyd edək ki, Nazirlər Kabinetinin 2021-ci il 29 yanvar tarixli Qərarı ilə təsdiq edilmiş “Startapın müəyyən olunması Meyarları” “Startap” şəhadətnaməsinin verilməsini tənzimləyir. “Startap” şəhadətnaməsini əldə etmiş sahibkarlıq subyektləri Vergi Məcəlləsinə uyğun olaraq innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və gəlir vergisindən üç il müddətinə azad edilirlər. Sözügedən vergi güzəştləri startapların maliyyə yükünü azaltmaqla, onların resurslarını layihənin inkişafına yönəltməyə imkan verir. Vergi güzəştləri startapların maliyyə dayanıqlığını artırır və onların böyüməsini sürətləndirir?.

Qurumdan bildirilir ki, “Startap” şəhadətnaməsinin ən böyük üstünlüyü vergi güzəştləri olsa da, bu sənəd həmçinin startapa bir sıra digər üstünlüklər verir. Məsələn, yerli və xarici investorların cəlb edilməsi, beynəlxalq akselerasiya və inkubasiya mərkəzlərinə qəbul olunması və xarici bazarlara çıxışını asanlaşdırır.

Məlumata görə, son illər “Startap” şəhadətnaməsini almaq üçün KOBİA-ya daxil olan müraciətlərin sayında dinamik artım müşahidə edilir. Bu göstərici dəstək mexanizminin effektiv işləməsindən, gənclərin bu sahəyə marağının artmasından xəbər verir.

Belə ki, indiyədək KOBİA tərəfindən 220 mikro və kiçik sahibkarlıq subyektinə “Startap” şəhadətnaməsi verilib.

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi

“Orta hesabla daxil olmuş müraciətlərin hər 3-dən 1-i Ekspertlər Şurası tərəfindən müsbət qiymətləndirilib. “Startap” şəhadətnaməsi almış sahibkarların fəaliyyət istiqamətləri əsasən süni intellekt həlləri, blokçeyn, sığorta və maliyyə texnologiyaları, e-ticarət və rəqəmsal marketinq, biznesin idarə olunması üçün həllər, təhsil texnologiyaları, ağıllı kənd təsərrüfatı, uçuş aparatları, robototexnika, logistika xidməti kimi sahələri əhatə edir. “Startap” şəhadətnaməsi almış sahibkarlıq subyektlərinin siyahısı ilə KOBİA-nın rəsmi internet səhifəsindən - smb.gov.az -dan tanış olmaq olar.

Qeyri-neft sektorunun inkişafı ölkə iqtisadiyyatının prioritet istiqamətidir. Xüsusilə də qeyri-neft sektorunda həm dövlət, həm də özəl sektorun rəqəmsallaşmasına, innovasiya infrastrukturlarının, o cümlədən daha çox əlavə dəyər yaradan məhsul və xidmətlərin inkişafına önəm verilir. Dövlətin startaplara dəstək alətlərindən olan “Startap” şəhadətnaməsi də strateji inkişafa dair sənədlərdən irəli gələn sahələrə, o cümlədən daha çox süni intellektə əsaslanan rəqəmsal həllərə, ağıllı sənaye və yaşıl iqtisadiyyatı dəstəkləyən və s. layihələrə təqdim edilir.

KOBİA-nın “Startap” şəhadətnaməsi təqdim etdiyi sahibkarların dövriyyəsində artım müşahid olunur. Eyni zamanda bu startaplar bazara bir sıra innovativ xidmət və məhsullar təqdim ediblər”.

Qurumdan o da bildirilir ki, yerli startaplarımız yerli və beynəlxalq trendləri yaxından izləyir və onlara uyğun layihələr təqdim edirlər:”Məsələn, 2024-cü ildə ölkəmizdə keçirilmiş COP29 tədbiri çərçivəsində “Startap” şəhadətnaməsi almaq üçün KOBİA-ya müraciət etmiş startapların təqdim etdiyi layihələr arasında ekoloji sahədə yeni enerji qoruyucu texnologiyalar və yaşıl iqtisadiyyata keçidə yönəlmiş layihələrin sayı 4 dəfə çox olub. Bundan əlavə hazırda dünyada bir sıra sahələr trenddir. Bunlara misal olaraq süni intellekt, aerokosmonavtika, yeni nəsil robotlar, ağıllı kənd təsərrüfatı, innovativ tibb xidmətləri və cihazlar kimi istiqamətləri qeyd etmək olar. “Startap” şəhadətnaməsi üçün edilmiş müraciətlər arasında da bu sahələr üstünlük təşkil edir və bu sektorlara müvafiq sənəd daha çox verilir. Beynəlxalq təcrübə ilə oxşarlıq həm də ondan ibarətdir ki, dünyada da bir sıra dövlətlərin bu sahəyə olan dəstək mexanizmləri günü-gündən artır.

İnkişaf etmiş ölkələrdə süni intellekt, yaşıl enerji, biotexnologiya və “deep tech” layihələrinə daha böyük vəsait ayrılır və diqqət göstərilir. Müşahidələrə görə, Azərbaycanda daha çox yerli bazarın praktiki ehtiyaclarını ödəyən və qısa müddətdə tətbiq oluna bilən innovativ layihələrə üstünlük verilir”.

Uğur qazanma ehtimalı daha yüksək olan startaplara gəlincə, KOBİA-dan bildirildi ki, bunlar əsasən İT həlləri, elektron ticarət, kənd təsərrüfatı və logistika sahələridir. Çünki bu istiqamətlər birbaşa bazar tələbinə cavab verir, gündəlik həyatda geniş istifadə olunur və tətbiqi imkanları daha sürətlidir. “Məsələn, elektron ticarət sürətlə artan onlayn alış-veriş tendensiyası ilə uyğunlaşır, aqrar texnologiyalar isə ölkənin iqtisadi prioritetlərindən biri olan kənd təsərrüfatının inkişafına xidmət edir. Bu kimi layihələr həm yerli, həm də beynəlxalq bazarda real rəqabət üstünlüyü qazana bilir”.

KOBİA-nın dəstəklədiyi startapların sektor üzrə bölgüsünə gəlincə, qurumdan bildirildi ki, 2021-2025-ci illərdə KOBİA-nın dəstək göstərdiyi startapların bölgüsündə əsas çəkini İT/rəqəmsal həllər, fintek və elektron ticarət təşkil edir. Kənd təsərrüfatı - agrotech stabil olaraq bu bölgüdə öz mövqeyini saxlayır. Pandemiyadan sonrakı mərhələdə e-ticarət və logistika həllərinin, son iki ildə isə süni intellektə dayanan B2B və yaşıl biznesə yönəlik xidmətlərin payının artdığı müşahidə olunur. Ümumi mənzərəyə baxsaq daha çox rəqəmsallaşma, data/AI və ixracyönlü B2B həllər dəstəklənir, agrotech strateji prioritet kimi qalır.

Amma hər sahədə olduğu kimi, uğurlarla yanaşı çətinliklər də var.

KOBİA-dan bildirilir ki, Azərbaycanda startap ekosisteminə dövlət dəstəyi güclənir. Bu sahə daha çox dəstək mexanizmləri tələb edir. Prosesin davamlı olması, startapların uğur qazanması üçün maliyyə dəstəyi və investisiya imkanlarının artırılması, yeni dəstək alətlərinin və vençur fondlarının yaradılması vacibdir:” Startap və innovasiya sahəsi ən çox investisiya tələb edən, eyni zamanda sərmayə qoyuluşlarının ən sürətli geri dönüşünün təmin olunduğu, yüksək gəlir gətirən sahələrdəndir. Beynəlxalq təcrübə göstərir ki, startap ekosisteminə daha çox vəsait xərcləyən ölkələr daha çox uğur əldə edir. Startapların uğur və çətinlikləri sahələr üzrə fərqlənsə də, ortaq tərəflər də mövcuddur. Süni intellekt, İT və rəqəmsal texnologiya layihələri qısa müddətdə geniş istifadəçi bazası qazanır, lakin qlobal rəqabət və ixtisaslı kadr çatışmazlığı onların inkişafını ləngidir. Aqrotexnoloji həllər kənd təsərrüfatında məhsuldarlığı artırır, amma fermerlər arasında rəqəmsal savadlılığın zəifliyi tətbiqi çətinləşdirir. Fintek startapları innovativ ödəniş və kredit həlləri ilə bazarda yer tutur, ancaq onların böyüməsi bir qədər ləng gedir. Elektron ticarət və logistika layihələri isə artan bazar tələbindən faydalanır, lakin yüksək rəqabət və müştəri loyallığının qorunması əsas sınaqlardandır. Ümumi çətinlik kimi isə maliyyəyə çıxış, xüsusilə də ilkin mərhələdə sərmayə imkanlarının məhdudluğunu qeyd etmək olar”.

Bununla belə, “Startap” şəhadətnaməsi almış sahibkarların dövriyyəsində artım qeydə alınıb. Onlar əvvəllər mövcud olmayan innovativ xidmət və məhsulları bazara təqdim ediblər. Startapları fərqləndirən cəhətlərdən biri isə onların sürətlə böyüməsidir.

“Beynəlxalq təcrübə göstərir ki, sıradan bir startap orta hesabla ildə 100-200% artım göstərir. Yenə beynəlxalq təcrübədən çıxış etsək, orta hesabla dövlətin bir uğurlu startap layihəsinə xərclədiyi 1 ABŞ dolları 5000 dollara qədər vəsait gətirə bilər.

KOBİA tərəfindən dəstəklənən startaplar ölkəmizdə qeyri-neft sektorunun inkişafında mühüm rol oynaya bilər. Onlar innovativ yanaşmaları ilə kənd təsərrüfatı, təhsil, maliyyə texnologiyaları, xidmət və digər sahələrdə yeni imkanlar yaradır. Bu startaplar həm yerli bazarda rəqabəti gücləndirərək, həm də ixrac potensialını artıraraq ölkəyə əlavə gəlir gətirmək potensialına malikdir. Eyni zamanda, vergi güzəştləri və dövlət dəstəyi sayəsində bu layihələrin davamlılığı təmin olunur. Ümumilikdə, startapların inkişafı iqtisadiyyatın daha çox şaxələndirilməsinə və qeyri-neft sektorunun daha da güclənməsinə töhfə verir”,-deyə qurumdan bildirilib.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

34_27 IYUl-QARA.qxd 9/11/2025 6:13 PM Page 13



# 72 mindən çox müəllimin əməkhaqqına əlavələr ediləcək

***Cari il sertifikatlaşdırma üzrə müsahibə mərhələsi bitdikdən sonra 72 mindən çox təhsilverənin əməkhaqqısına əlavələr ediləcək.***

"Unikal" xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev yeni tədris ilinə dair keçirilən brifinqdə deyib.

O bildirib ki, ibtidai sinif üzrə ən zəif nəticə göstərən 4 min ətrafında müəllimin müqaviləsinə xitam verilib.

# Nəsimi festivalında "Zamansız və məkansız" sərgisi nümayiş olunacaq




***Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçiriləcək Nəsimi festivalının maraqlı təqdimatlardan biri də "Zamansız və məkansız" sərgisi olacaq.***

"Unikal" xəbər verir ki, sərginin açılışı festivalın ilk gününə - sentyabrın 23-nə təsadüf edir.

Azərbaycan Milli Xalça Muzeyində açılacaq ekspozisiyada Nəsimi poeziyası və onun fəlsəfəsi, həmçinin sufi ənənələri və baxışları müxtəlif incəsənət növlərinin ahəngi vasitəsilə təqdim olunacaq. Bu məqsədlə nümayiş üçün Azərbaycan və Türkiyənin aparıcı muzeylərindən nadir sənət inciləri seçilib. İzləyicilər Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyalarında, Azərbaycan Milli Xalça Muzeyinin fondlarında saxlanılan unikal incəsənət nümunələri, eləcə də Ankaradakı Etnoqrafiya Muzeyi, İstanbul Türbələr Muzeyi, Konyadakı Mövlanə Muzeyindən gətirilən eksponatlarla tanış ola biləcəklər.

Burada XVII-XX əsrlərə aid rəsm əsərləri, geyim nümunələri, xalçalar, musiqi alətləri, əlyazma kitab və digər qiymətli eksponatlar sərgilənəcək. Həmin sənət incilərinin hər biri sufi dünyagörüşünün izlərini özündə yaşadaraq sufiliyin və hürufiliyin əsasını təşkil edən sonsuz eşqi, insanın ibadətlə Allaha mənəvi yaxınlaşması və ruhi yüksəlişini izah edəcək.

Ekspozisiya oktyabrın 23-dək açıq olacaq.

# Ağdaşda meyvə bağlarının salınmasına maraq artıb

***Son illərdə Ağdaş rayonda meyvə bağlarının salınmasına maraq artmışdır. İl ərzində rayon ərazisində 378,4 hektar yeni meyvə bağları salınmışdır ki, bu da keçən il yeni salınmış bağların ümumi sahəsindən 2,5 dəfə çoxdur.***

Hazırda meyvə bağlarının sahəsi 4 min 87,0 hektara çatdırılmışdır. Rayonda xurma bağlarının əkin sahəsi üstünlük təşkil edir. Belə ki ümumi əkin sahəsinin 41,6 faizini və ya 1 min 699,5 hektarını xurma bağlarıdır. Bundan başqa nar, heyva, gilas, alça bağlarınında əkin sahələri üstünlük təşkil edir. Bu il ilk dəfə olaraq rayon ərazisində badam və zeytun bağları da salınmasına başlanmışdır.

Cari ilin səkkiz ayında meyvə bağlarından 8 min 252,6 ton məhsul toplanmışdır. İndiyədək bağlardan 4 min 879,7 ton alça, 1 min 684,2 ton gilas, 591,8 ton gavalı və digər meyvələr toplanmışdır. Hazırda meyvə bağlarında məhsul yığımı davam edir.

Meyvə bağları rayonun Yuxarı Ağcayazı, Dəhnəxəlil, Kükəl, Ərəb, Qolqəti, Aşağı Zeynəddin, Gürcuva və Birinci Aral kəndlərində daha çox müşahidə olunur.

***Ağdaş Rayon Statistika İdarəsi***

# Ötən ay 12 şəxs ölkəyə readmissiya edilib

***Azərbaycan Respublikasının imzaladığı və qüvvədə olan readmissiya sazişləri çərçivəsində cari ilin avqust ayı ərzində 12 şəxsin ölkəyə readmissiyası həyata keçirilib.***

"Unikal" xəbər verir ki, bu barədə Dövlət Miqrasiya Xidməti məlumat yaylb.

Bildirilib ki, həmin şəxslər Avropa ölkələrindən readmissiya olunub.

# MİQ imtahanı pullu olacaq



***Müəllimlərin işə qəbulu ilə bağlı müsabiqədə iştirak ilk dəfə iştirak edənlər və bir sıra şəxslər istisna olmaqla digər şəxslər üçün ödənişli olacaq.***

"Unikal" xəbər verir ki, bu barədə məsələ Milli Məclisin Elm və təhsil komitəsinin bugünkü iclasında müzakirə olunan "Ümumi təhsil haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində öz əksini tapıb.

Layihəyə əsasən, dövlət ümumi təhsil müəssisələrinə müəllimlərin işə qəbulu və yerdəyişməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada müsabiqə yolu ilə həyata keçiriləcək.

Müəllimlərin işə qəbulu ilə bağlı müsabiqədə iştirak (ilk dəfə müsabiqədə iştirak edənlər, əlilliyi olan şəxslər, ünvanlı dövlət sosial yardımı alan ailənin üzvləri, şəhid ailəsinin üzvləri və Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə "Müharibə veteranı" adı almış şəxslər istisna olmaqla) ödənişli olacaq. Müəllimlərin işə qəbulu ilə bağlı müsabiqədə iştirak etmək üçün ödənişin məbləği müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən ediləcək.

Layihədə qeyd edilib ki, "Ümumi təhsil haqqında" qanuna əsasən, dövlət ümumi təhsil müəssisələrinə müəllimlərin işə qəbulu və yerdəyişməsi Elm və Təhsil Nazirliyinin Kollegiyasının qərarı ilə "Müəllimlərin işə qəbulu və yerdəyişməsi Qaydaları"na əsasən tənzimlənir. Həmin Qaydalara uyğun olaraq müəllimlərin işə qəbulu və yerdəyişməsi müsabiqə yolu ilə həyata keçirilir.

Layihədə müəllimlərin işə qəbulunda iştirakçıların məsuliyyətinin artırılması, dövlət büdcəsi vəsaitlərinə qənaət edilməsi və maliyyə yükünün müəyyən bir hissəsinin iştirakçılar tərəfindən qarşılanması məqsədilə sözügedən müsabiqədə iştirakın ödənişli olması təklif edilir.

Təqdim olunan dəyişikliklərə əsasən ödəniş ilk dəfə müsabiqədə iştirak edənlər, əlilliyi olan şəxslər, ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvləri, şəhid ailəsinin üzvləri və Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə "Müharibə veteranı" adı almış şəxslərə münasibətdə nəzərdə tutulmayıb.

Qeyd edilib ki, layihənin qəbul edilməsi dövlət büdcəsinin qənaətlə istifadə edilməsinə və müsabiqə iştirakçılarının məsuliyyətinin artırılmasına xidmət göstərəcək.

***Anar Kəlbiyev***

# Peşə məktəblərinə tələbə qəbulu başladı



***11 sentyabr tarixindən etibarən 2025/2026-cı tədris ili üzrə peşə təhsil müəssisələrinə boş qalan plan yerləri üçün tələbə qəbulunun III-sonuncu mərhələsinə start verilir.***

Bu barədə "Unikal"a Peşə Təhsili üzrə Dövlət Agentliyindən məlumat verilib. Bu mərhələdə ilk iki mərhələdə uğursuz nəticə göstərən və ya ümumiyyətlə daha öncə müraciət etməyən şəxslər müraciət edə bilərlər. Daha öncə hər hansı peşə təhsil müəssisəsinə qəbul olan və sənədlərini təsdiq edən şəxslər bu mərhələdə ixtisas dəyişilməsi məqsədilə müraciət edə bilməzlər.

11 sentyabr tarixindən etibarən müraciətçilər elektron qaydada portal.edu.az saytına daxil olmaqla açıq olan vakant yerlərə müraciətlərini göndərə biləcəklər. Boş qalan yerlərə sənəd qəbulu 12 sentyabr saat 18:00-dək davam edəcək.

Portal.edu.az saytı vasitəsilə müraciət aşağıdakı ardıcıllıqla həyata keçirilməlidir:

Şəxsi kabinetinə daxil olunur.

"Peşə təhsili müəssisələrinə elektron tələbə qəbulu" xidmətinə keçid edilir.

"Müraciət et" bölməsinə daxil olunur.

Şəxsi məlumatlar daxil edilir.

Əvvəlki təhsil məlumatları daxil edilir

Ekranda görünən vakant yerlərdən biri seçilib müraciət edilir.

Təsdiq aldığı təqdirdə, sənədlər peşə təhsil müəssisəsinə təqdim edilməlidir.

Hər bir vakant yerə ilk müraciət edən şəxs şəxsi kabinetinə müsabiqədən keçməsi ilə bağlı bildiriş alacaq və həmin şəxs bildiriş aldıqdan sonra 13 sentyabr tarixinədək sənədlərini qəbul olduğu təhsil müəssisəsinə təqdim etməlidir.

# İşdən çıxarılan bağça müdirlərinin sayı açıqlandı



***Ötən tədris ilində fəaliyyətində yol verdiyi nöqsanlara görə vəzifəsindən azad olunan bağça müdirlərinin sayı açıqlanıb.***

"Unikal" xəbər verir ki, bu barədə elm və təhsil naziri Emin Əmrullayev brifinqdə bildirib.

Nazir qeyd edib ki, monitorinqlər nəticəsində 18 məktəbəqədər təhsil müəssisəsi müdirinin fəaliyyətinə xitam verilib.

# Azərbaycanda rəsmi statistikanın təkmilləşdirilməsi işi davam edir

***Statistika sözü latınca "status" sözündən gəlmişdir, hərfi tərcüməsi hadisələrin vəziyyəti deməkdir. Bu sözün kökündən "stato" (dövlət), "statista" (statistik - dövlət işlərinin bilicisi) və "statistica" (statistika - dövlət haqqında müəyyən biliklərin, məlumatların cəmi) sözləri yaranmışdır.***

Bu termindən ilk dəfə alman alimi, fəlsəfə və hüquq professoru Qotfrid Axenval (1719-1772) istifadə etmişdir. Statistikada alman təsviri məktəbinin əsasını qoyan Q.Axenvalın statistika haqqında baxışları müasir baxışlardan əhəmiyyətli dərəcədə fərqlənir. O, yeni tədris olunan fənnin məzmununu dövlətlərin siyasi vəziyyətinin və diqqətəlayiq yerlərin təsvir edilməsi hesab edirdi. İngilis siyasi arifmetika məktəbinin yaradıcıları olan Con Braunt (1620-1674) və Vilyam Pettinin (1623-1687) elmi baxışları statistika haqqında müasir baxışlara daha yaxın olmuşdur. Statistikanın sonrakı inkişafı Belçika statistiki A. Ketlenin (1796-1874) adı ilə bağlıdır. Statistik göstəricilərin sabitliyi nəzəriyyəsinin işlənməsində onun xüsusi xidmətini qeyd etmək lazımdır. Hazırda statistika termini üç mənada işlədilir. İlk növbədə statistika dedikdə adamların xüsusi praktiki fəaliyyət sahəsi başa düşülür. Hansı ki, bu fəaliyyət sosial-iqtisadi inkişaf səviyyəsini əks etdirən məlumatların toplanması, işlənməsi və təhlilinə istiqamətlənmişdir. İkincisi, statistika təcrübəsində istifadə olunan nəzəri fikirlərin və metodların işlənməsi ilə məşğul olan elm sahəsi statistika adlandırılır. Nəhayət, bəzən müxtəlif hesabatlarda əks etdirilən, dövri mətbuatda və külliyyatlarda dərc edilən statistik məlumatlar da statistika adlandırılır.

Azərbaycan ərazisində statistikanın müntəzəm təşkilinə Şamaxı (1846-cı ildən 1859-cu ilədək), Bakı (1859-cu il) və Gəncə (1867-ci il) quberniyalarının yaradılmasından sonra onların tərkibində statistika komitələrinin fəaliyyəti ilə başlanılmışdır.

Həmin dövrdən başlayaraq 1917-ci ilədək tərtib edilən, özündə 20-27 statistik cədvəli birləşdirən quberniyaların illik hesabatları statistik xarakterli çoxsaylı məlumatları - əhalinin, mal-qaranın, fəhlələrin, yarmarkaların, fabrik və zavodların sayını, əkin və məhsulları, yarmarka dövriyyələrini, əsas malların ticarət qiymətlərini, hərbçilərin sayını və bir çox başqa məlumatları əhatə edirdi.

Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq mövcudluğu dövründə (1918-1920) ölkə ərazisində statistik məsələlərə rəhbərlik edən vahid orqanın yaradılmasına tam nail olunmasa da, ayrı-ayrı nazirliklərin tərkibində statistika ilə bağlı müəyyən qurumlar yaradılmışdır. Bu qurumlar 15 noyabr 1918-ci il tarixindən Dövlət Əmlakı və Əkinçilik Nazirliyinin tərkibində Statistika şöbəsi və 1919-cu il iyul ayından isə Əkinçilik Nazirliyinin Torpaq Fondu şöbəsində Statistika bürosu kimi fəaliyyətdə olmuşdur.

1920-ci il iyulun 8-də Nəriman Nərimanovun imzası ilə Azərbaycan İnqilab Komitəsi tərəfindən statistiklərin müvəqqəti kollegiyası haqqında əsasnamə təsdiq edilmişdir.

1924-cü ildən Azərbaycan ərazisində yerli statistika orqanlarının yaradılmasına başlanmış və sonrakı illərdə bütövlükdə yerlərdə statistika orqanlarının yaradılması həyata keçirilmişdir.

1928-ci il sentyabrın 28-də Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi və Azərbaycan SSR Xalq Komissarları Şurası Azərbaycan SSR Mərkəzi Statistika İdarəsi haqqında yeni əsasnamə təsdiq edir.

1948-ci ilin avqustunda respublika Mərkəzi Statistika İdarəsi Dövlət Plan Komissiyasından ayrılaraq, SSRİ Nazirlər Soveti yanında Mərkəzi Statistika İdarəsinə tabe olur. Bu, statistika orqanlarının işinin yaxşılaşdırılması üçün böyük əhəmiyyət kəsb edirdi.




1987-ci ildə Azərbaycan SSR Mərkəzi Statistika İdarəsi Azərbaycan SSR Dövlət Statistika Komitəsinə çevrilir və Azərbaycan SSR Nazirlər Kabinetinin 30 mart 1988-ci il tarixli qərarı ilə Azərbaycan SSR Dövlət Statistika Komitəsi haqqında əsasnamə təsdiq edilir.

1994-cü il Azərbaycan statistikasının tarixində xüsusi il olmuşdur. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən 18 fevral 1994-cü ildə "Statistika haqqında" Azərbaycan Respublikasının Qanunu imzalanmışdır. Qanunda Avropa İqtisadi Komissiyasının 1992-ci il aprelin 15-də Cenevrədə keçirilən 47-ci sessiyasının qərarı ilə təsdiq edilmiş "Avropa İqtisadi Komissiyası regionunda rəsmi statistikanın əsas prinsipləri"nin bütün tələbləri nəzərə alınaraq, Azərbaycan Respublikasında təsərrüfatçılıq fəaliyyəti ilə məşğul olan subyektlərin Dövlət reyestrinin və beynəlxalq təsnifatlara uzlaşdırılmış milli təsnifatların yaradılması, ölkə ərazisində dövlət statistika müşahidələrinin keçirilməsi, statistik sirr, dövlət statistika orqanları işçilərinin sosial müdafiəsi və s. xüsusi maddələr qeyd edilmişdir.

Müstəqillik dövrü ərzində Azərbaycanda rəsmi statistikanın təkmilləşdirilməsi, bu sahədə islahatların başa çatdırılması və beynəlxalq standartlara uyğunlaşdırılması, cəmiyyətin daha geniş məlumatlandırılması və statistikanın dövlətin iqtisadi siyasətinə uyğun daha da inkişaf etdirilməsi, ölkənin sosial-iqtisadi inkişafı üzrə informasiya təminatının yaxşılaşdırılması, statistik göstəricilər sisteminin dünya standartları səviyyəsinə çatdırılması, iqtisadiyyatın dünya iqtisadiyyatına inteqrasiyasını səciyyələndirən yeni statistik məlumatların əldə edilməsi və onun beynəlxalq statistika standartları səviyyəsinə yüksəldilməsi diqqət mərkəzində olmuşdur. Bu məqsədlə, Dövlət Statistika Komitəsi tərəfindən statistika sahəsində islahatların aparılması və onun təkmilləşdirilməsi haqqında dövlət proqramları işlənib hazırlanmış və həyata keçirilmişdir. Bu illər ərzində 5 Dövlət Proqramı (1993-1997, 1998-2002, 2003-2007, 2008-2012-ci, 2013-2017-ci illəri əhatə edən) yerinə yetirilmiş, sonuncu, 2018-2025-ci illəri əhatə edən Dövlət Proqramı ölkə Prezidentinin 2018-ci il 14 fevral tarixli, 3672 nömrəli Sərəncamı ilə təsdiq edilmiş və hal hazırda yerinə yetirilir.

Dövlət Proqramının əsas məqsədi statistika işlərinin ölkədə və beynəlxalq aləmdə cərəyan edən sosial-iqtisadi proseslərə və müasir çağırışlara uyğun təkmilləşdirilməsi üçün kompleks tədbirlərin həyata keçirilməsi yolu ilə rəsmi statistikanın inkişaf etdirilməsidir. Bu tədbirlərə sosial, iqtisadi və digər sahələr üzrə statistika müşahidələrinin təşkili və metodologiyaların hazırlanması, metaməlumatlar və təsnifatlar, rəsmi statistika materiallarının istehsalının hüquqi, inzibati və informasiya təminatı, istifadəçi məmnunluğunun artırılması, beynəlxalq əməkdaşlıq, maddi-texniki bazanın və kadr potensialının gücləndirilməsi istiqamətlərini əhatə edən fəaliyyətlər daxildir.

Azərbaycan xalqının ümummilli lideri H.Əliyevin ölkə statistiklərinin yaddaşına həkk olunmuş "Dövlət Statistika Komitəsi əsas orqanlardan biridir" məşhur kəlamı Dövlət Statistika Komitəsinə verilən qiymətin bariz nümunəsidir.

Son illər Dövlət Statistika Komitəsinin qarşısında duran ən mühüm və həlli vacib məsələlərdən biri beynəlxalq keyfiyyət standartlarının qısa müddət ərzində öyrənilməsi, təhlili və tətbiqi olmuşdur. Statistik istehsalın bütün mərhələlərini əhatə edən bu standartlar artıq onilliklər ərzində beynəlxalq səviyyədə tətbiq olunur və ölkələrin statistika təşkilatları tərəfindən öz işlərinin səmərəli təşkilində istifadə edilir. Yerli qanunvericiliyin tələbləri nəzərə alınmaqla bu standartların əsası qorunmaq şərtilə milli versiyaları yaradılır və beynəlxalq standart məlumat mübadiləsinin ana xəttini təşkil edir.

***Xızı Rayon Statistika İdarəsinin rəisi***
***Rövşən Quliyev***



# Talış yüksəkliyi uğrunda yağıya qan qusduran igid

***2020-ci ilin sentyabrın 27-də Ali Baş Komandamızın əmri ilə erməni təxribatlarına qarşı aparılan əks-həmlə əməliyyatları başlanan kimi minlərlə Azərbaycan övladı silaha sarılıb qələbə uğrunda mübarizəyə qoşuldu.***

Odlardan, alovlardan keçərək, misilsiz şücaət göstərməklə 30 il yağıya əsir düşən Vətən torpaqlarını 44 günə azad etdilər. İgidlərin qanı, canı bahasına qazanılan bu şanlı zəfərlə bir daha xalqın kimliyi, mənliyi bütün dünyaya bəlli olundu. Cəlilabad rayonunun Göytəpə şəhərində boya-başa çatan Əlikram Xanışov da canını Vətənə fəda edib tarixin yaddaşına iz qoyan qəhrəmanlardan oldu.

İgidlik, mərdlik, vətənsevərlik Əlikramın qanında idi. Odur ki, 20 yaşında Vətənin, millətin yolunda şüurlu surətdə canında keçdi. Və onun qısa ömrü torpağına, elinə-obasına sonsuz məhəbbət mücəssəməsinə döndü. Həm də ölümündən sonra dövlət tərəfindən layiq olduğu "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları Əlikramın keçdiyi fədakarlıqla dolu rəşadətli döyüş yoluna bir şərəf qatır.

Əlikram Qabil oğlu V.Hüseynov adına Göytəpə şəhər 2 saylı tam orta məktəbində oxuduğu zaman tərbiyəsi, biliyi, vətənpərvərliyi ilə müəllimlərinin sevimli şagirdi olub. Hamı onun Vətənə layiqli övlad olmağına inanıb. 2018-ci ildə orta məktəbi bitirəndə isə ləyaqətli, gözəl mənəvi keyfiyyətlərə malik, yurduna sevdalı bir gənc olaraq tanınıb, dərin ehtiram qazanıb. Evdə məqsədini soruşanda bildirib ki, əzəli yurd yerimiz - Qarabağımız ermənilər tərəfindən işğal olunub. Bu yandan qana susamış dığalar günü-gündən azğınlaşır. Onların ilan başını əzmək üçün Vətənə cəsur, qeyrətli oğullar lazımdır. Əsgərlik yaşım da çatıb. Belə bir vəziyyətdə orduda xidmətdə olmaq hər bir gənc üçün böyük şərəfdir.

Əlikram hərbi xidmətə cəbhə bölgəsində başlayıb. Vətənin keşiyində vicdanla durub, əsgəri borcunu şərəflə yerinə yetirib. Nizam-intizamı başqa əsgərlərə də nümunə olub. Hərbi təlimlərdə fəallıq göstərib, qatıldığı hər sınaqdan uğurla keçib. Bütün bunlarla düşməndən alacağı öcə hazır durub. Məqamı gələndə hər qarış torpaq uğrunda son damla qanına qədər döyüşəcəyinə and içib.

Göstərdiyi nümunəvi xidmətlə Əlikram özünə hörmət qazandıran əsgər kimi 2020-ci il aprel ayında evə qayıdıb. 20 gündən sonra düşməndən qisas almaq məqsədilə yenidən hərbiyə qayıdıb. Müharibə zamanı lazımı biliklər qazanmaq üçün iştirak etdiyi təlimlərdə əla döyüş keyfiyyətləri göstərib. Əsgər yoldaşlarına da erməni dığalarına qarşı qeyrətlə, kişi kimi vuruşmağı, yağı gülləsini vecinə almamağı deyib. Nəhayət, 5 ay xidmət etdiyi vaxt Əlikramın gözlədiyi məqam gəlib. O, sentyabr ayının 29-da anası ilə telefonla danışıb. Halalıq istəyəndən sonra müharibə meydanına girib. Talış yüksəkliyi və Suqovuşan istiqamətdə gedən döyüşlərdə əsl şücaət göstərib. Ölüm-dirim savaşlarda dığalara qan qusdurub, onlara ağır itkilər verib. Oktyabr ayının 2-də qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlib.

***Zəfər Orucoğlu,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

34_27 IYUl-QARA.qxd 9/11/2025 6:13 PM Page 15



## ABŞ hərbi xərclərə 900 milyard dollar ayırdı

***ABŞ Konqresinin Nümayəndələr Palatası 2026-cı il üçün (oktyabrın 1-dən başlayır) təxminən 900 milyard dollarlıq hərbi xərcləri nəzərdə tutan qanun layihəsini təsdiqləyib.***

"Unikal" xəbər verir ki, bu barədə xarici KİV məlumat yayıb. Sənədi 231 deputat dəstəkləyib, 196 deputat əleyhinə olub.

Hazırda Nümayəndələr Palatasında azlıq təşkil edən ABŞ Demokrat Partiyasından 17 qanunverici qanun layihəsini dəstəkləyib, yalnız dörd respublikaçı ona səs verməyib.

Sənəddə Ukraynaya 400 milyon dollar hərbi yardımın ayrılmasını nəzərdə tutan bənd var. Bu vəsaitlərin Ukraynaya Təhlükəsizliyə Yardım Təşəbbüsü (USAI) vasitəsilə ayrılması nəzərdə tutulur. O, Amerika arsenallarından birbaşa müəyyən avadanlıq və vasitələrin verilməsini deyil, ABŞ Müdafiə Nazirliyinin istehsalçılarla müqavilələr bağlamasını nəzərdə tutur.

***Ağarza Elçinoğlu***

## "Kirkin qətlində əli olan hər kəsi tapacağıq" - Tramp

***ABŞ prezidenti Donald Tramp mühafizəkar siyasətçi Çarli Kirkin qətlində əli olanların hamısını tapacağına söz verib.***

"Unikal" xəbər verir ki, Ağ Ev rəhbəri bu barədə "Truth" sosial şəbəkəsində yayımlanan videomüraciətində bildirib. Xatırladaq ki, ötən gün məşhur amerikalı mühafizəkar fəal Çarli Kirk "Utah Valley" Universitetində çıxışı zamanı ona sui-qəsd olub. O, yaralı vəziyyətdə xəstəxanaya yerləşdirilib, lakin siyasətçinin həyatını xilas etmək mümkün olmayıb.

***Gülayə Mecid***

## Ermənistanda merin oğlu həbs edildi

***Ermənistanın Gümrü rayonunun meri Vardan Qukasyanın oğlu hüquq-mühafizə orqanları tərəfindən həbs edilib.***

"Unikal" xəbər verir ki, bu barədə erməni KİV məlumat yayıb. Daxili İşlər Nazirliyinin polisi məlumatı təsdiqləyib.

Həbsin səbəbi hələlik bəlli deyil.

***Ağarza Elçinoğlu***

## Yəmən İsrailə raketlə hücum edib

***İsrail Yəməndən ölkə ərazisinə doğru raket buraxılışını qeydə alıb.***

"Unikal" xəbər verir ki, bu barədə İsrail Müdafiə Qüvvələri (IDF) məlumat yayıb.

Nəşr qeyd edir ki, ölkənin bir sıra bölgələrində həyəcan sirenaları səslənir. İsrail ordusu daha sonra Yəməndən atılan raketin İsrail Hərbi Hava Qüvvələri tərəfindən məhv edildiyini açıqlayıb.

## Netanyahu Qətərə çağırış etdi - Onları ölkədən çıxarın!

***İsrailin baş naziri Benyamin Netanyahu Qətərdən HƏMAS üzvləri ilə bağlı çağırış edib.***

"Unikal" xəbər verir ki, bu barədə İsrail baş nazirinin ofisi açıqlama yayımlayıb.

Qətər rəsmilərinə müraciət edən Netanyahu HƏMAS rəsmilərinin ölkədən çıxarılmasını və ya onların məsuliyyətə cəlb olunmasını tələb edib. Netanyahu həmçinin Dohada HƏMAS üzvlərinə qarşı hücumun legitimliyini müdafiə edərək, 7 oktyabr hücumlarını ABŞ-dəki 11 sentyabr hücumları ilə müqayisə edib. Qətər Xarici İşlər Nazirliyi Netanyahunun açıqlamalarını "ehtiyatsızlıq" adlandırıb. Qətərin baş naziri və xarici işlər naziri Məhəmməd bin Əbdülrəhman Əl Tani CNN telekanalına müsahibəsində İsrail ilə məsləhətləşmələr aparıldığını bildirib.

***Gülayə Mecid***

# "Bu ad Azərbaycanda o qədər məşhurlaşıb ki..." - Paşinyan

***Ermənistanın baş naziri Nikol Paşinyan dünən parlamentdə hökumətlə sual-cavab zamanı Vaşinqton razılaşmasından sonrakı dövrdə istifadə olunan "Zəngəzur dəhlizi" ifadəsinin işlədilməsinə toxunub.***

"Unikal" xəbər verir ki, baş nazirin bu barədə çıxışı erməni KİV-də yayımlanıb.

Onun sözlərinə görə, Ermənistanla Azərbaycan arasında kommunikasiyalar təsbit olunmuş sənədlə əlaqələndirilməlidir, lakin TRIPP layihəsi Ermənistan və ABŞ arasında ikitərəfli müzakirə mövzusudur: "Ermənistan və Azərbaycanın kommunikasiyaları bir-birinə bağlı olmalıdır. Amma TRIPP layihəsi Ermənistan və ABŞ arasında ikitərəfli müzakirə mövzusudur. Və bu layihədə təkcə Ermənistanın baş naziri və ABŞ prezidentinin deyil, həm də Azərbaycan prezidentinin imzası var.



Obyektiv reallıq və subyektiv təsəvvürlər var. Obyektiv reallıq ondan ibarətdir ki, Ermənistan və Azərbaycan Vaşinqtonda bir-birinin ərazi bütövlüyünü, suverenliyini, yurisdiksiyasını və sərhədlərinin toxunulmazlığını bir daha tanıyıb. Və buradan belə bir kanalın Ermənistan Respublikasının ərazisindən keçə biləcəyi, onun bu barədə qərar qəbul etməsi haqqında razılıq əldə olunub".

Bundan əlavə, Paşinyan qeyd edib ki, Ermənistan və ABŞ "Sülhün kəsişməsi" layihəsinin inkişafı ilə bağlı niyyət memorandumu imzalayıblar: "Burada biz ABŞ ilə bu layihənin ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında həyata keçiriləcəyinə dair razılığa gəlmişik və orada ABŞ sərmayə qoymaqda maraqlıdır. Bu, obyektiv reallıqdır, qalanı subyektiv reallıqdır.

Amma mən onu da istisna edə bilmərəm ki, obyektiv və subyektiv şəraitə görə bu ad Azərbaycanda o qədər məşhurlaşıb ki, Azərbaycan öz ərazisindən keçən istənilən infrastrukturu, o cümlədən Trampın yoluna qoşulmalı olan infrastrukturu istənilən adla adlandıra bilər. Amma bunun Ermənistanın suveren ərazisi, gündəliyi və Vaşinqtonda əldə olunmuş razılaşmalarla heç bir əlaqəsi yoxdur".

***Ağarza Elçinoğlu***

## "Ermənilər gedib Azərbaycandan benzin alacaqlar" - Simonyan



***"Azərbaycanlıların yarası var. Düzdü, ya yanlışdı demirəm, amma Azərbaycanda Ermənistanın 30 ildir ölkənin 20% ərazisini işğal altında saxladığını düşünürlər".***

"Unikal" xəbər verir ki, bunu Ermənistan parlamentinin sədri Alen Simonyan deyib.

"Aydındır ki, Azərbaycan üçün gələcək təhlükənin qarşısını almaq və ona, məsələn, 50 və ya 100 ildən sonra imkan verməmək vacibdir... Hər şey ola bilər", - o qeyd edib.

Onun sözlərinə görə, ermənilərin əksəriyyəti Azərbaycan sərhədçilərini görmək istəmir: "Bu pisdir, amma zamanla keçəcək. Eyni ermənilər və azərbaycanlılar Moskvada bizneslə məşğul olurlar, dostluq edirlər. Başqa ölkələrdə də belə edirlər. Gərginlik var, yaralar təzədir. Məgər biz insanları öldürmədik? Azərbaycan tərəfində insanlar ölmədimi? Etibarın bərpası dövründə təmasların minimuma endirilməsi problemi var. Bu o demək deyil ki, 5-10 ildən sonra da belə olacaq".

Spiker qeyd edib ki, Ermənistan üçün mümkün qədər tez kommunikasiyaların blokdan çıxarılması vacibdir: "Bu emosional məsələlər tez bir zamanda həll olunacaq. Bizim Ermənistan-Azərbaycan malları üçün müştərək bazarımız olacaq. Mağazalarımızda Azərbaycan malları, Bakıda və Azərbaycanın digər şəhərlərində erməni malı olacaq. Bu, qaçılmazdır. Ermənilər gedib Azərbaycandan benzin alacaqlar, çünki bu, sərfəlidir".

***Ağarza Elçinoğlu***

# Polşa Belarusla sərhədini bağlayır

***Polşa Belarusla sərhədini tamamilə bağlayır.***

"Unikal" xəbər verir ki, bu barədə Polşa Xarici İşlər Nazirliyi bəyan edib.

Bildirilib ki, bu, Rusiya və Belarus arasında sentyabrın 12-dən 16-dək keçiriləcək "Zapad-2025" birgə hərbi təlimləri ilə bağlıdır.

"Belarusla sərhəd həm də Şengen zonasının sərhədi olduğu üçün bu qərar təhlükəsizlik məqsədilə qəbul edilib", - XİN-in bəyanatında deyilir.




Polşa sentyabrın 11-dən 12-nə keçən gecə Belarusla sərhədini tamamilə bağlayacaq.

Polşa rəsmiləri həmçinin Ukrayna və Belarusla sərhədlərdə uçuş məhdudiyyətlərinin dekabrın 9-dan qüvvəyə minəcəyini açıqlayıb.

***Ağarza Elçinoğlu***

# Aİ rəhbəri Rusiyaya növbəti xəbərdarlıq etdi

***Avropa İttifaqı diplomatiyasının rəhbəri Kaya Kallas Polşada baş vermiş dron insidentindən sonra Rusiyaya qarşı sanksiyaları sərtləşdirəcəyini vəd edib.***

"Unikal" xəbər verir ki, bu barədə məlumat Avropa Komissiyasının saytında yerləşdirilib.

Onun sözlərinə görə, Avropanın hava məkanının pozulması "yalnız bizim Ukraynanı və onun xalqını Rusiyaya qarşı müdafiəsində və hərtərəfli, ədalətli və davamlı sülh axtarışında dəstəkləmək əzmini gücləndirir".

"Biz Rusiya və onun müttəfiqlərinə qarşı sanksiyaları əhəmiyyətli dərəcədə artırmaqla Moskvanın xərclərini artırmağa davam edəcəyik. Biz beynəlxalq tərəfdaşlarla da çalışacağıq ki, Rusiyaya bu müharibəni dayandırması üçün təzyiq göstərək", - Kallas bildirib.

***Gülayə Mecid***

# "Qarabağ" dünya reytinqində 38 pillə iréliləd

**_Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyası (IFFHS) klubların yeni dünya reytinqini açıqlayıb._**

"Unikal" qurumun rəsmi saytına istinadən xəbər verir ki, 506 komandanın daxil olduğu siyahıda Azərbaycanın 4 təmsilçisi yer alıb.

Siyahıda 38 pillə irəliləyən "Qarabağ" (154,75 xal) 96-cı yerdə qərarlaşıb.

"Sabah" (79,25 xal) 38 pillə geriləyərək 302-ci, "Araz-Naxçıvan" (70,25 xal) 8 sıra irəliləyərək 355-ci olub. "Zirə" (68 xal) isə 274-ci yerdən 380-ci pilləyə düşüb. Qeyd edək ki, dünya reytinqinə Fransanın PSJ klubu (543 xal) başçılıq edir.



# Formula 1-ə görə Bakıda bağlanacaq yolların - Siyahısı

**_Sentyabrın 15-dən etibarən Bakı Şəhər Halqasının (BŞH) əhatə etdiyi küçələrdə nəqliyyatın hərəkəti məhdudlaşdırılacaq._**

"Unikal" xəbər verir ki, bu barədə əməliyyat şirkəti məlumat yayıb. Bildirilib ki, 19-21 sentyabrda keçiriləcək "Formula-1 Qatar Airways" Azərbaycan Qranprisi ilə əlaqədar logistik əməliyyatların həyata keçirilməsi məqsədilə 12 sentyabr gecə saat 01:00-dan etibarən Puşkin küçəsinin Üzeyir Hacıbəyov küçəsi və Neftçilər prospekti ilə kəsişməsindən olan hissəsi nəqliyyatın hərəkəti üçün məhdudlaşacaq. Məhdudiyyət tədbirin sonunadək davam edəcək.

Nəqliyyatın İdarəetmə Planına əsasən, Bakı Şəhər Halqasının keçdiyi küçələr və trekin əhatə etdiyi ərazilər isə 15 sentyabr gecə saat 01:00-dan 23 sentyabr səhər saat 08:00-dək nəqliyyatın hərəkəti üçün bağlı olacaq. Məhdudiyyətlər tətbiq olunan zonalarda giriş-çıxış yalnız "Yaşayış yerinə giriş icazəsi" ilə mümkün olacaq.

Qeyd olunub ki, son iki ilin təcrübəsinə əsaslanaraq, bu il də şəhər sakinlərinin və sürücülərin rahatlığı üçün yarış müddətində bəzi əsas yollar əhalinin istifadəsi üçün açılacaq.

Belə ki, 15-16-17 sentyabr tarixlərində yarış zolağının aşağıda sadalanan giriş-çıxış hissələri səhər saat 07:00-dan 09:00-dək, axşam saat 18:00-dan 20:00-dək nəqliyyatın hərəkəti üçün dayanma və durma olmadan sərbəst olacaq.

18 sentyabrda isə səhər saat 07:00-dan 09:00-dək, axşam isə saat 20:00-dan 22:00-dək bu yollar açıq olacaq.

**Giriş nöqtələri:**

- Salyan şosesindən Neftçilər prospekti və Azneft dairəsi istiqamətində;
- M.Lermontov küçəsindən BMT-nin 50 İlliyi küçəsi və İstiqlaliyyət küçəsi istiqamətində;
- S.Vurğun küçəsindən Ü.Hacıbəyli küçəsi və Bülbül prospekti istiqamətində;
- Bülbül prospektindən Xəqani küçəsi və Neftçilər prospekti istiqamətində;
- Nizami və Puşkin küçələrinin kəsişməsindən Xəqani küçəsi istiqamətində.



**Çıxış nöqtələri:**

- Neftçilər prospektindən Bakı Dəniz Limanı və "Crescent Mall" istiqamətində;
- İstiqlaliyyət küçəsindən Azərbaycan prospekti istiqamətində;
- Neftçilər prospektindən Azneft dairəsi və "Dəniz Mall" istiqamətində.

"Qeyd olunan yollar yalnız tranzit koridoru kimi istifadə ediləcək. Həmçinin fövqəladə hallar istisna olmaqla, tranzit dəhlizləri açıq olduğu zaman nəqliyyat vasitələrinin parklaması, sərnişin minmə və enməsi qadağandır. Bundan başqa, həmin yollarda ağır tonnajlı yük maşınlarının və ictimai nəqliyyatın hərəkəti istisna edilir", - məlumatda bildirilib.

# Daha bir boksçumuz yarımfinala yüksəldi

**_İngiltərənin Liverpul şəhərində keçirilən boks üzrə dünya çempionatında yarımfinalçıların adlarına aydınlıq gəlib._**

"Unikal" xəbər verir ki, Azərbaycan millisinin heyətində Alfonso Dominqesin ardınca Səidcəmşid Cəfərov (75 kq) da 1/4 final mərhələsini qələbə ilə başa vurub.

Boksçumuz yarımfinala gedən yolda Pavlo İlliuşa (Ukrayna) ilə qarşılaşıb. Cəfərov rəqibi üzərində 5:0 (29:28, 29:28, 29:28, 30:27, 29:28) hesabı ilə qələbə qazanıb. Bu qələbə sayəsində Səidcəmşid özü üçün azı bürünc medalı da təmin edib.




Səidcəmşid yarımfinalda özbəkistanlı Fazliddin Erkinboyevlə döyüşəcək. Görüş sentyabrın 12-də keçiriləcək. Həmin gün Alfonso Dominqesin rəqibi isə braziliyalı Santos Ribeyro Filyo olacaq.

Qeyd edək ki, dünya çempionatında bu gün istirahətdir. Mundiala sentyabrın 14-də yekun vurulacaq.



# Növbəti ÇL finalı bu klubun stadionunda keçiriləcək

**_2026-2027 UEFA Çempionlar Liqasının finalı Madriddəki Metropolitano stadionunda keçiriləcək._**

"Unikal" xəbər verir ki, bu barədə xarici KİV məlumat yayıb.

Metropolitano 70.692 tamaşaçı tutumu olan "Atletico Madrid"in stadionudur.

Daha əvvəl 2026-cı ildə Çempionlar Liqasının finalının Budapeştdəki Ferens Puşkaş adına stadionda keçiriləcəyi açıqlanmışdı. Final mayın 30-da baş tutacaq.

Xatırladaq ki, son finalda Fransa çempionu PSJ Milan "İnter"ini 5:0 hesabı ilə məğlub etmişdi.

*Ağarza Elçinoğlu*

# Şeydayev "Qarabağ"a qayıtdı

**_"Qarabağ"da sürpriz transfer gerçəkləşib._**

"Unikal" Oxu.Az-a istinadən xəbər verir ki, Ağdam təmsilçisi Ramil Şeydayevlə razılığa gəlib.

"Neftçi" ilə qarşılıqlı razılıq əsasında yollarını ayıran hücumçu 2 illik fasilədən sonra yenidən "köhlən atlar"ın heyətinə qayıdıb.

29 yaşlı futbolçu daha əvvəl 2017-2018 və 2021-2023-cü illərdə "Qarabağ"da forma geyinib.

Şeydayev peşəkar karyerası ərzində "Zenit" (Rusiya), "Trabzonspor" (Türkiyə), "Jilina" (Slovakiya), "Krılya Sovetov" (Rusiya), "Dinamo" (Moskva, Rusiya) və "Buriram Yunayted"də (Tayland) çıxış edib.

# Basketbol üzrə Avropa çempionatında bütün yarımfinalçılar müəyyənləşib



**_Kişi basketbolçular arasında Avropa çempionatında bütün yarımfinalçılar bəlli olub._**

"Unikal"xəbər verir ki, 1/4 finalın son oyununda Almaniya millisi Sloveniyaya qalib gələrək (99:91) növbəti mərhələyə vəsiqə qazanıb.

Yarımfinalda Türkiyə Yunanıstanla, Finlandiya isə Almaniya ilə qarşılaşacaq.

Qeyd edək ki, bu mərhələnin matçları sentyabrın 12-də təşkil olunacaq. Avropa çempionunu müəyyənləşdirəcək final və üçüncülük görüşləri sentyabrın 14-də baş tutacaq.

# "Benfika" - "Qarabağ" oyununun hakimləri bəlli oldu

**_UEFA Gənclər Liqasının əsas mərhələsində "Qarabağ"ın U-19 komandasının Portuqaliyada "Benfika"ya qarşı keçirəcəyi oyunun təyinatları bəlli olub._**

"Unikal" xəbər verir ki, qarşılaşmanı Şimali İrlandiyadan olan Ceymi Robinson idarə edəcək

FIFA referisinə Adam Ceffri və Brayan Uilson kömək göstərəcək. Dördüncü hakim funksiyasını portuqaliyalı Dioqu Roza yerinə yetirəcək.

Qeyd edək ki, sentyabrın 16-da təşkil olunacaq "Benfika" - "Qarabağ" matçı Bakı vaxtı ilə saat 14:00-da start götürəcək.